

Naxçıvan Dövlət Universiteti Azərbaycanın ən dəyərli, qabaqcıl ali məktəblərindən biridir


# Yeni Fikir

Təsisçi: Naxçıvan Dövlət Universiteti

10 Aprel 2024-cü il, çərşənbə axşamı
N: 3 (59)
Qəzet 2011-ci ildən nəşr olunur


## Naxçıvan Dövlət Universitetində ali təhsilin texnologiya əsaslı innovativ inkişafı təmin edilir

XXI əsr dünyada yeni elmi inqilab və texnoloji inkişaf çağı hesab olunur. Dünya ölkələrinin iqtisadi inkişafını hesabatlarında açıqlayan beynəlxalq təşkilatlar tərəqqini şərtləndirən informasiya texnologiyalarından istifadənin yaratdığı səmərəni də qeyd edirlər. Beynəlxalq aləmdə nüfuzu yüksələn, texnoloji mübarizə yüzilliyi olan XXI əsrin çağırışlarına uğurları ilə cavab verən ölkəmizin əsas hədəflərindən biri də ən müasir texnologiyaların respublikamıza gətirilməsidir. Digər ali təhsil müəssisələri kimi Naxçıvan Dövlət Universiteti də məhz dövrün tələblərinə uyğun mütəxəssislərin hazırlığını diqqətdə saxlayır, informasiya texnologiyaları üzrə fənnlərin tədrisində əyani



vəsaitlərdən istifadə, kabinələrin yaradılması və universitetin hazırladığı və ya tərəfdaş kimi qoşulduğu digər çoxsaylı layihələr informasiya texnologiyalarının tətbiqinə göstərilən diqqətin bariz nümunəsidir. Ali təhsil müəssisəsində yaradılmış kompüter otaqlarında ən müasir informasiya texnologiyaları vasitələri gənclərin istifadəsindədir.

Bugün universitetdə müasir dövrün tələblərinə uyğun olaraq meydana çıxan innovativ yeniliklər, mütərəqqi təcrübələr və müsbət təcrübələrin öyrənilməsi və tədrisdə tətbiq edilməsi əsas hədəflərdəndir desək, yanılmarıq. Bu səbəbdəndir ki, Naxçıvan Dövlət Universiteti dünya texnologiya nəhəngi olan IBM, Robotex Türkiyə, İstanbul Texnik Universiteti kimi bu sahədə kifayət qədər təcrübəsi olan böyük şirkət və ali təhsil müəssisələri ilə əməkdaşlıqlar qurur, onların təcrübəsi öyrənilir. İmzalanan müqavilələrə əsasən universitet əməkdaşları IBM və Robotex Türkiyənin təşkil etdiyi müxtəlif təlimlərində iştirak edərək həmin sahələr üzrə təlimçi (instructor) sertifikatı əldə edirlər. Bu da gələcəkdə ali təhsil ocağında IBM şirkəti ilə birgə yaradılacaq Proqramlaşdırma Mühəndisliyi İnstitutu və hazırda qurulan Texnoparkın fəaliyyət istiqamətində, universitetdə mühəndislik ixtisaslarında dərs deyən müəllimlərin təcrübi peşə vərdişlərinin formalaşmasında mühüm əhəmiyyət daşıyacaq. Ali təhsil ocağında IBM üzrə müxtəlif proqramlar icra olunur, bu sahə üzrə laboratoriyalar fəaliyyət göstərir.

IBM və “Robotex Türkiyə” ilə əldə olunan əməkdaşlıq nəticəsində universitetin texnologiya həllərinə çıxış imkanlarının artırılmasına, innovasiya yönümlü layihələrin dəstəklənməsinə və inkişaf etdirilməsinə, strateji problemlərə uyğunlaşdırılmış ixtisaslı kadrların yetişdirilməsinə töhfə verir. Bütün bunlar isə ali təhsil ocağında elmtutumlu layihələrin sayını artırır.

Bütün sadaladığım gərgin əməyin nəticəsidir ki, martın 2-də Bakı İdman Sarayında Naxçıvan Dövlət Universitetinin ölkə üzrə təmsilçisi olduğu Robotex Azərbaycan festivalının möhtəşəm açılış mərasimi baş tutdu.

Naxçıvan Dövlət Universiteti və Robotex Türkiyənin birgə təşkilatçılığı, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, Azercellin və Global



Olympiad Center dəstəyi ilə keçirilən “Robotex Azərbaycan Avrasiya Çempionatı” Azərbaycanda ilk dəfə olaraq həyata keçirilib.

Möhtəşəm tədbirdə 6 univeristet, 41 məktəb, 10 özəl müəssisədən 250-dən çox komanda, 1500-dən çox iştirakçı, 5000-dən çox qonaq iştirak edib. Robotex Azərbaycan Avrasiya Çempionatında Komandalar 18 kateqoriyada mübarizə aparıblar. Ali təhsil ocağında müasir dövrün çağırışlarına uyğun rəqabət qabiliyyətli mütəxəssislərin hazırlanması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, yekunda Robotex Azərbaycan Avrasiya Çempionatınında mükafatlandırılan 163 komandadan 6-sı müxtəlif layihələr üzrə qalib olan Naxçıvan Dövlət Universitetinin komandalarıdır. Bu tədbirin davamı kimi 18 ölkənin iştirakı ilə Antalyada olacaq yarımfinal mərhələsində dərəcə göstərən komandalar noyabr ayında Estoniyada təşkil ediləcək dünya çempionatında iştirak haqqı qazancaqlar. Bundan əvvəl NDU-nun “NSUTECH”



komandası 2023-cü ilin qalib olaraq, Estoniyada keçiriləcək Dünya Robot Festivalında iştirak hüququ qazanmışdı.

Məlumat üçün onu da bildirək ki, Robotex Azərbaycan Avrasiya Çempionatında iştirak edən və müəyyən nəticə qazanan komandaların üzvləri Türkiyə texnoparklarında şirkətlərini qurma, Türkiyə dövlətidən maliyyə imkanı əldə edəcəklər. Eyni zamanda bu yarışda qazanılan sertifikatlar gələcəkdə tanınmış dünya univeristetlərində təhsil almaq arzusunda olan şagirdlərin təqaüd ilə təhsil almasında eyni zamanda qəbul alma şanslarını artıracaqdır.

Əminliklə qeyd etmək olar ki, universitetdə belə gələcək yönümlü sahə üzrə biliklərin nəinki Naxçıvan, həmçinin ölkəmiz üçün mühüm töhfələr verəcək. Buna görə də gərgin əməyin nəticəsi olaraq Naxçıvan Dövlət Universitetini mühüm öhdəliklər, böyük işlər, yeni ideyalar və onların reallaşdırılması, yeni məqsədlər, hədəflər və uğurlu nəticələr gözləyir.

***Pərviz Hacılı***

## Robotex Azərbaycan Avrasiya Çempionatından yaddaqalan görüntülər



***Foto: Məmmədbağır Dünyamalıyev***


Azərbyacan qadını - fədakarlıq və ləyaqət nümunəsi 2
Qədim əlyazma mətnləri diyarımızın zəngin mədəniyyətindən xəbər verir 3
Rektor Elbrus İsayev “Açıq mikrofon” layihəsi çərçivəsində xarici tələbələrin suallarını cavablandırıb 4
Bahar səsli, yaz nəfəsli Novruz! 5
10 Mart - Milli Teatr Günüdür 6
Milyonların sevimlisi – dahi bəstəkar Arif Məlikov 7
Universitet əməkdaşları təlimçi (instructor) sertifikatı əldə ediblər 8
Soyumuzun qan yaddaşı 9
NDU-nun gənc rəssamlarının soyqırımı qurbanlarının əziz xatirəsinə həsr olunan sərgisi 10



# Azərbaycan qadını - fədakarlıq və ləyaqət nümunəsi

Ölkəmizdə, həmçinin muxtar respublikamızda qadınlara göstərilən diqqət və qayğı, etimad yüksək səviyyədədir. Azərbaycanda qadınlar ölkə tarixinin bütün dövrlərində xalqın taleyüklü məsələlərinin həll edilməsinə öz töhfələrini veriblər. 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti dövründə ölkə ərazisində yaşayan bütün xalqların və hər iki cinsin bərabər seçki hüququ qanunla təsbit edilirdi. Bununla da, Azərbaycan Şərqdə qadınlara seçki hüququ verən ilk ölkə oldu.

Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyası qadınların kişilərlə bərabər demokratik dövlət quruculuğu prosesində fəal iştirakının hüquqi bazasını yaratdı.

Azərbaycan Respublikası 1995-ci il iyunun 30-da Birləşmiş Millətlər Təşkilatının "Qadınlara münasibətdə ayrı seçkiliyin bütün formalarının ləğv olunması haqqında" konvensiyasına qoşularaq öz üzərinə müvafiq öhdəliklər götürdü.

"Cəmiyyətdə qadınların üzərinə daim çox böyük vəzifələr düşür, onların işi həmişə ağırdır. Ancaq onlar bu vəzifələri şərəflə yerinə yetirir və həmişə olduğu kimi indi də cəmiyyətdə aparıcı rol oynayırlar", deyən ümummilli liderimiz Heydər Əliyev 1998-ci ildə "Azərbaycanda qadınların rolunun artırılması haqqında" fərman imzalamışdır. Bu sənəd hər mənada qadınların fəallığına, cəmiyyətdə öz yerlərini qazanmalarına kömək olmuşdur. Heydər Əliyevin 2000-ci ildə imzaladığı "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərmanı isə ölkədə qadın siyasətinin daha da gücləndirilməsi ilə nəticələnmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin hər bir sahədəki qabaqcıl siyasətini uğurla davam etdirən cənab prezidentimiz İlham Əliyev gender bərabərliyi sahəsində də müvafiq tapşırıqlar verir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda dövlət qadın siyasəti yüksəliş mərhələsinə qədəm qoymuşdur. Dövlətimizin qadınlarla bağlı yürütdüyü siyasət bu sahədə Azərbaycanı öncül dövlətlər sırasına aid edir. Ölkəmizdə qadın problemləri daim dövlət qayğısındadır və gender proqramı ardıcıl surətdə həyata keçirilməkdədir.

Dövlətçilik sisteminin elə bir sahəsi yoxdur ki, qadınlar orada təmsil olunmasın, uğur qazanmasın. Azərbaycan qadını tarixən olduğu kimi, bu gün də milli-mənəvi dəyərlərimizin qorunaraq yaşadılmasında, həmçinin ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında təqdirəlayiq töhfələrini verməklə yanaşı, ümumən cəmiyyətin inkişafında aparıcı statusa malikdir. Bütün bunlar bilavasitə ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən dövlət qadın siyasətinin, qadın amilinə verilən müstəsna dəyərin nəticəsidir.

Ölkənin uğurla davam etdirilən dövlət qadın siyasəti hər sahədə yüksəliş əldə edən muxtar respublikamızda da diqqət mərkəzindədir. Ölkəmiz müstəqillik əldə etdikdən sonra Naxçıvan qadınlarının ictimai-siyasi fəaliyyəti də ildən-ilə artır.

Ana müqəddəsdir. Cənnət anaların ayaqları altındadır, deyiblər. Öz anamın timsalında hər bir Azərbaycan qadını cənnət qurucusudur. Sara xatunlar, Tomrislər, Nigarlar, Zərifələr yetirən odlar yurdu cəsarətli və mərd qadınlarımızı tarixən müxtəlif səhnələrində, fərqli obrazlarda yaratmağa davam edir.

11 yaşında atasını itirən ana himayəsində yetişdirilən bir xanım olaraq, Azərbaycan qadının cəsarətinə və gücünə ən yaxşı bələd olanlardan biri də mənəm. Hər iki övladının təhsil alması üçün əlindən gələnin ən yaxşısını edən, bizi milli-mənəvi dəyərlərimizə, dövlətimizə, xalqımıza sadiq, vətənpərvər duyğularla yetişdirən Anam mənə Azərbaycan qadınının hər şeyi ən gözəl şəkildə bacardığına və bacaracağına böyük ümidlər verir.

Azərbaycan qadını cəsarətlidir, mübarizdir, müqəddəsdir. Beynəlxalq Qadınlar Günündə Azərbaycanın qəhrəman övladlarının anaları da hər zaman olduğu kimi indi də yaddaşımızdadır. Tarix boyu igid oğullar yetişdirən, Vətən üçün, can Azərbaycan deyəndə, Azərbaycanımızın yaraları sızlamasın deyə, öz canından pay verən Analarımız səcdəgahımızdır.

*Erkək tinətliyəm, olsam da qadın,*
*Hər işi bəllidir mənə dünyanın.*
*Mən də bir aslanam, düşünsən bir az,*
*Aslanın erkəyi, dişisi olmaz.*

Hələ XII əsrdə dahi Nizami Gəncəvi Nüşabənin dili ilə Azərbaycan qadınına yüksək dəyər verərək xanımlarımızı öz fikirləri və sözləri ilə bədii təsvir etmişdir.

Azərbaycan qadını müqəddəsdir, dünyanın bütün gözəlliklərinə layiq, hər işin öhdəsindən gəlməyi bacaran, zərif və güclü bir sərkərdədir.

Uzaq-yaxın keçmişə nəzər salsaq, tariximizin ictimai, siyasi, hərbi və demək olar ki, hər bir sahəsində kişilərlə çiyin-çiyinə dayanaraq yüksəliş, inkişaf və ülvi hisslər üçün mübarizə aparan Azərbaycan xanımlarını görə bilərik. Eramızdan əvvəl VI əsrdə yaşamış və düşmənləri qan göləndə boğan Tomris anamız, diplomat Sara xatunumuz, şəhid jurnalist Salatın xanımımız, Vətən müharibəsi şəhidimiz Ərastə xanım, övladlarını Vətənə qurban verən şəhid analarımız, bütün çətinliklərə rəğmən yoldaşının yanında olan, qazilərimizin ömür-gün yoldaşları, müharibələrin ağrı-acısını duyan, Vətən müharibəsi iştirakçılarının mələk qızları, onlar qəhrəman, mərd, güclü və bacarıqlı Azərbaycan xanımlarının bir qismidir...

Əziz Azərbaycan xanımları, Türk dünyası xanımları, bütün xanımlar sizlər dünyanın istiqamətini dəyişə biləcək ilk şəxslərsiniz. Sizlər həm zərif, həm də çox güclüsünüz...

***8 Mart-Beynəlxalq Qadınlar Günündə Vətənimizin bütövlüyü, inkişafı uğrunda şəhid olan bütün xanımlarımızın ruhları qarşısında baş əyir, şəhid, qazi, Vətən müharibəsi iştirakçılarının ana, bacı, həyat yoldaşı, qızlarını səmimi qəlbdən təbrik edir, cansağlığı arzulayıram. Onların timsalında cəmiyyətimizin inkişafı və çiçəklənməsi yolunda öz mərdliyi, zərafəti, elmi, təhsili, mədəniyyəti, yetişdirdiyi övladları ilə Azərbaycan tarixinə töhfələr verən bütün qadınlarımıza, həmçinin ana, bacı, yoldaş, rəhbər, mütəxəssis rolunda çıxış edən hər bir xanıma gözəl diləklərimi və təbriklərimi çatdırıram.***

***Hər gününüz mübarək, əziz xanımlar!***

***Təbrizə Bağırova***
***Naxçıvan Dövlət Universiteti***
***Tələbə Elmi Cəmiyyətinin sədri, Elmi fəaliyyətin təşkili və təhlili şöbəsinin baş elmi işçisi***

## Naxçıvan Dövlət Universitetində 8 mart Beynəlxalq Qadınlar Günü qeyd edilib

Tədbirdən öncə əlamətdar tarixi günə həsr olunan sərgiyə baxış olub. Sərgidə 4 ədəd vitraj, 6 ədəd dekorativ, 9 ədəd bədii



tikmə və rəngkarlıq nümunələri olmaqla ümumilikdə 51 əl işi nümayiş olunub.

"Azərbaycan qadınları cəmiyyətin aparıcı qüvvəsidir" - deyən universitetin rektoru Elbrus İsayev qeyd edib ki, Ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dövründə qadın amilinə yüksək dəyər verib, onların hüquqlarının müdafiəsi, problemlərinin həlli, dövlət idarəçiliyi sistemində təmsil olunması,







cəmiyyətdəki mövqeyinin möhkəmləndirilməsi istiqamətində məqsədyönlü və ardıcıl tədbirlər həyata keçirilib. Bildirilib ki, bu gün ulu öndərin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən dövlət qadın siyasəti daha geniş müstəvidə həyata keçirilir.

Qeyd edilib ki, düşmənlə mübarizədə övladını, həyat yoldaşını Vətən üçün şəhid verən qadınlarımızın izzətli, təmkinli duruşu bu gün bütün dünyaya dərs olub. Onlar mərdlik və mətanət nümayiş etdirərək yurdumuzun hər qarışını canından əziz bilən bir nəsil yetişdiriblər. Vətənimiz üçün layiqli övladlar böyüdən əsgər analarına, xanımlarına, bacılarına ən xoş arzularımı çatdırıram. Azərbaycan xalqı daim onlara minnətdar olacaqdır. Əminik ki, dövlətimizin qayğısını daim öz üzərində hiss edən qadınlarımız bundan sonra da ölkəmizin inkişafı, ailə dəyərlərimizin yaşadılması, gənc nəslin Vətənə məhəbbət və Azərbaycançılıq ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasında səy göstərəcəkdir.

Qadınlar adından çıxış edən Naxçıvan Dövlət Universitetinin Biologiya kafedra-sının dosenti, pedaqogika elmləri doktoru Zərövşən Babayeva yaradılan şəraitə və xanımlara göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Tədbir bədii rəhbəri, Prezident mükafatçısı Sərxan Abdullayev olan İncəsənət fakültəsinin "Xalq çalğı alətləri" kafedrasının "Buta" instrumental ansamblının konsert proqramı ilə davam edib.

Sonra Aktyor sənəti ixtisasının tələbələri rejissoru Azər Cəfərli olan, "Ağıllı fikirləşənədək…" adlı pantomim tamaşa nümayiş edilib.

Qeyd edək ki, Beynəlxalq Qadınlar Günü münasibətilə universitetin bütün qadın əməkdaşlarına pul mükafatı verilib.

## 8 mart – Beynəlxalq Qadınlar Gününə həsr olunmuş tədbir keçirilib

Naxçıvan Gənclik Mərkəzində "Sevinc – Milli-Mənəvi Dəyərlər və Müasir Çağırışlarla sintezin inkişafına dəstək" ictimai birliyinin təşkilatçılığı ilə 8 mart – Beynəlxalq Qadınlar Gününə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə torpaqlarımız uğrunda canını fəda edən şəhidlərin əziz xatirəsi yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Şəhid Sadiqov Emin Rəşadət oğlunun anası Gülşad Rüstəmova, şəhid Rzayev Zülfü Zeyni oğlunun anası Mehparə Rzayeva, şəhid Abdullazadə Tağı İlham





oğlunun həyat yoldaşı Nuranə Abdullazadə çıxış ediblər.

Qeyd edilib ki, qeyrətli, qəhrəman Vətən oğulları Şuşanı, Xocalını, digər torpaqları öz canları, qanları bahasına işğaldan azad ediblər. Şəhidlərimiz sayəsində xalqımızın başı ucadır. Bu gün həmin torpaqlarda quruculuq işləri gedir. Şəhid ailələri olaraq övladlarımızla qürur duyuruq. Şəhid anaları, bacıları, yoldaşlarının "Vətən sağ olsun!" kəlməsi Azərbaycan qadınının mərdliyinin, cəsarətinin, gücünün ən böyük göstəricisidir. Çıxış edənlər muxtar respublikada şəhid ailələrinə verilən dəyərə görə minnətdarlıqlarını bildiriblər.

Naxçıvan Dövlət Universitetinin professoru, "Sevinc – Milli-Mənəvi Dəyərlər və Müasir Çağırışlarla sintezin inkişafına dəstək" ictimai birliyinin təsisçisi Sevinc Abbasova şəhid ailələrini, iştirakçıları salamlayaraq tədbirin əhəmiyyətini qeyd edib. Bildirib ki, birliyin ilk tədbiri şəhid ailələri ilə keçirilir. Birliyin yaradılmasında əsas məqsəd insanları maarifləndirməkdir. Sevinc Abbasova qeyd edib ki, arzumuz budur ki, gənclərimiz Vətən torpaqları uğrunda canlarını fəda edən oğullarımız kimi



qəhrəman, cəsarətli, Azərbaycan qadınları şəhid anaları kimi həmişə mübariz, iradəli olsunlar.

Çıxış edənlər bayram münasibətilə qadınları təbik ediblər.

Tədbir bədii hissə ilə davam edib. Görkəmli dramaturq Hüseyn Cavidin "Qadın" şeiri səsləndirilib. "Yeni era"





Uşaq və Gənclər Teatrının təqdimatında "Ana" kompozisiyası təqdim edilib. Sonra məktəblilər anaları ürək sözləri ilə təbrik ediblər. "İncilər" rəqs qrupunun təqdimatında "Zəfər" rəqsi tədbirə əhval-ruhiyyə qatıb.

Sonda "Sevinc – Milli-Mənəvi Dəyərlər və Müasir Çağırışlarla sintezin inkişafına dəstək" ictimai birliyinin təsisçisi Sevinc Abbasova tədbirə yekun vuraraq tədbirin təşkilinə dəstək göstərən, iştirak edən hər kəsə minnətdarlığını bildirib.

Uşaqlara və şəhid ailələrinə hədiyyələr təqdim edilib.

# Qədim əlyazma mətnləri diyarımızın zəngin mədəniyyətindən xəbər verir

Naxçıvan Azərbaycan xəritəsində elə bir əhəmiyyətli bölgədir ki, tarix boyu diqqət mərkəzində olmuşdur. Hətta onun adının belə "Nuh peyğəmbərlə" əlaqələndirilməsi və Gəmiqaya əfsanəsi bir daha sübut edir ki, bölgə təkcə Azərbaycanın deyil, bütün bəşər sivilizasiyasının mərkəzi olmuşdur. Bu mənada Naxçıvana dair olan hər bir əlyazma mətn, bədii əsərlərdə Naxçıvana aid olan hər bir qeyd çox böyük əhəmiyyət kəsb edir. Gəmiqaya onun Naxçıvan, ümumiyyətlə, Azərbaycan tarixində rolu, yeri olduqca böyükdür və obrazlı şəkildə desək, dünyanın hər yanından görünür. O dərəcədə ki, Naxçıvan deyəndə Gəmiqaya, Gəmiqaya deyəndə Naxçıvan yada düşür. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev deyirdi: "Gəmiqaya Azərbaycanı Sivilizasiyanın başlanğıcı ilə bağlayan olduqca möhtəşəm bir Kitabə - Naxçıvan Kitabəsidir". Bu mənada hər bir yazılı abidə mətnlərinin həm filoloji, həm də tekstoloji təhlili Naxçıvana aid tarixi həqiqətləri ortaya çıxarır. Bu da Naxçıvanda yaşayan əhalinin tarixi keçmişini, məişətini, dilini, mədəniyyətini öyrənmək baxımından olduqca əhəmiyyətlidir. Əlimizdə



olan Naxçıvanın keçmişinə dair elmi-bədii əlyazma mətnlərində bölgənin ictimai-siyasi-mədəni həyatı barədə kifayət qədər məlumatlar var. Həmin əlyazmaların müəllifləri naxçıvanlı olmasalar da, Naxçıvan haqqında yalnız xoş sözlər demiş, onun şanlı tarixində baş verən ictimai-siyasi-mədəni hadisələri qələmə almışlar.

İlk dəfə tərəfimizdən sistemli şəkildə araşdırılan əlyazma mətnlərinin mahiyyəti ondan ibarətdir ki, çoxlu sayda əlyazma Naxçıvanın ictimai-siyasi tarixinin, dövlətçilik ənənələrinin, ədəbi-bədii və eyni zamanda fəlsəfi həyatında mühüm rol oynayan məzmunlu mənbələr hesab olunur. Həmçinin 100 illik Muxtariyyət dövründə müəyyən qadağalara məruz qalmış xalqımızın milli-mənəvi dəyəri olan əlyazma mətnləri məhz müstəqillik dövründə Naxçıvanda araşdırılmağa başlanılmışdır. Bu da ulu öndər Heydər Əliyevin 07 avqust 2002-ci ildə imzaladığı tarixi sərəncama uyğun olaraq yaradılmış Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və onun tərkibində Əlyazmalar Fondunun yer alması ilə bağlıdır. Təşkil edilmiş, bu fond birbaşa Naxçıvana dair əlyazmaların toplanması, kataloqlaşdırılması, tədqiqi və nəşri ilə məşğuldur. Belə ki, Azərbaycan ədəbiyyatı tarixində Naxçıvanla bağlı qeydlərə XI əsr şairimiz Qətran Təbrizinin (1012-1088) əsərlərində rast gəlirik. Şairin divanında 50-dək beyt Naxçıvana və onu idarə edən hökmdarlara aiddir. O, XI əsr Rəvvadi hökmdarı Əbu Duləfin düşmən üzərində qələbəsini mədh edir. Həmin beytlərdən məlum olur ki, Naxçıvan hakiminin düşmənlərə qalib gəlməsini şəxsən müşayət etmişdir. Həmin qanlı-qadalı günlərdə dəfələrlə Naxçıvana hücumlar olmuş və qəhrəman Naxçıvan hakimi Əbu Duləf onların hamısını dəf edib, naxçıvanlıları təhlükədən xilas etmişdir. Bu kimi mətnlər Naxçıvanın qaranlıq keçmişinə işıq saçan şölələrdir. Həmin beytləri oxuduqca biz XI əsrdə Naxçıvan camaatının yaşadığı faciələri, düşmən üzərində qələbəsinin fərəhinin şahidi oluruq.

Naxçıvana dair əlyazma mətnlərdə rast gəldiyimiz XII əsr Naxçıvan mədrəsələri Azərbaycanın orta əsrlər ilk təhsil ocaqlarından sayıla bilər. Onlar barəsində ilk yazılı məlumata XIII əsrdə müəllifi məlum olmayan "Əcaib əd-dünya" adlı əlyazmada rast gəlinir.

Elxanilər dövlətində maliyyə işlərini idarə edən "Sahib divan" ("baş vəzir") Şəmsəddin Məhəmməd Cuveyni tərəfindən 1263-1284-cü illərdə yazılmış əlyazmada Naxçıvan mədrəsələri haqqında geniş məlumat var. Başqa bir əlyazma 1186-cı ildə Naxçıvan şəhərində şəxsən Möminə Xatın üçün tikilmiş məqbərənin vəqflərinə aiddir. Bu əlyazmanı Naxçıvandakı mədrəsələrin "Nizamnaməsi" adlandırmaq olar. Burada mədrəsələrin idarə olunması və tədris işlərinə rəhbərlik məsələsi, eləcə də müdərrislərin və tələbələrin qarşılıqlı münasibətləri müəyyənləşdirilmiş və təlim işləri ilə əlaqədar bir sıra faydalı metodik göstərişlər və məsləhətlər verilmişdir. Bu əlyazmalardan məlum olur ki, mədrəsələrdə dini elmlərlə yanaşı, dünyəvi elmlər də tədris edilmişdir. Bu da XII əsr Naxçıvanın hansı səviyyədə inkişaf etməsindən xəbər verir.

Naxçıvana dair qeydlərə rast gəldiyimiz bir mənbədə Əbu Bəkr ibn Xosrov əl-Ustadın "Munisnamə" kitabıdır. Kitabdakı "Əshabi-Kəhf" (Mağara sahibləri) piri ilə bağlı nağıl xalq arasında geniş yayılmış və Qurani-Kərimdə belə öz əksini tapmışdır. Atabəylərin sarayında Farabi, Mücirəddin Beyləqani, Əsirəddin Əxsikəti, Əbu Bəkr İbn Xosrov əl-Ustad, Əşhəri, həkim Əkmələddin ən-Naxçıvani kimi qabaqcıl ziyalılar yaşayıb yaradırdı və onların sarayı ilə hətta böyük mütəfəkkir Nizami Gəncəvi bağlı idi. Həmin adamların zəmanəmizə gəlib çatan əlyazmaları Naxçıvanın XII əsr ədəbi mühiti barədə kifayət qədər məlumat verir. Nizami Gəncəvi "Xosrov və Şirin" poemasını Atabəy hökmdarlarına həsr etmişdir. Şairin dostu olan Əbu Bəkr ibn Xosrov əl-Ustad Gəncədə olanda tez-tez Nizaminin yanına gedirdi. Sarayda isə Atabəylərin uşaqlarını tərbiyə edirdi. Atabəy Cahan Pəhləvanı və Qızıl Arslanı lap uşaqlıq illərindən o tərbiyə etmiş, müxtəlif elmləri onlara öyrətmişdir. Onun qiymətli əlyazma əsəri olan "Munisnamə" kitabı da mədrəsələrdə dərslik kimi istifadə olunurdu. 20 fəsildən çox olan bu əlyazma kitabın axırıncı fəslində 33 maraqlı nağıl verilmişdir. Həmin mətnlər XII əsr Naxçıvanın zəngin mədəniyyət xəzinəsindən xəbər verir.

"Munisnamə"dəki 26-cı nağıl belə adlanır: "Mağara sahibləri və Dağ Yunis haqqında rəvayət". Qeyd etdiyimiz kimi, bu nağılda Naxçıvanda məşhur olan "Əshabi-Kəhf" pirinin əhvalatı geniş nəql olunur. Məlum olduğu kimi, bu pirin qissələri müqəddəs kitabımız olan Qurani-Kərimin 18-ci surəsinin 9-25-ci ayələrində də öz əksini tapmışdı. Naxçıvan pirlərinin müəyyən əlyazma mətnlərdə göstərilməsi və müqəddəs mənbələrdə öz əksini tapmasının özü də göstərir ki, bu diyar Şərqin həmişə diqqət mərkəzində olmuşdur. Əbu Bəkr ibn Xosrov əl-Ustad bu əhvalatı özünün "Munisnamə" əsərinə salmaqla bir daha Naxçıvan torpağının müqəddəsliyini ön plana çəkmişdir.

"Munisnamə" əsərindəki 29-cu qissə isə belə adlanır: "Əbu-Lüla Kirmani və onun oğlunun Naxçıvana yürüşü haqqında dastan". Bu dastanda hadisələr Naxçıvanda cərəyan edir. Əsərdə xristian qızının müsəlmana vurulması və onu zindandan xilas etməsi təsvir olunur. Şərq ədəbiyyatında Fəridəddin Əttar və Hüseyn Cavidin "Şeyx Sənan" mövzusunda yazdıqları əsərlərin süjetini məhz bu ideya təşkil edir.



XI əsrdə Naxçıvan alim və şairlərinin yazdıqları əsərlərin sonrakı əsrlərdə köçürülmüş nüsxələri bu günə qədər gəlib çatmış, indi dünyanın bir sıra tanınmış əlyazma xəzinələrində yüksək səviyyədə saxlanılır. Bu dövrlərdə Naxçıvanda yaranan əlyazma kitabları öz məzmun və mündərəcəsinə görə çoxşaxəlidir: divan, tibb, fəlsəfə, musiqi, hüquq, astronomiya, riyaziyyat, məntiq, ilahiyyat, təfsir kitabları və s.

XII əsrdə Naxçıvanda Azərbaycan dövlətçiliyi tarixində qüdrətli Eldənizlər – Atabəylər dövlətinin yaranması Naxçıvanda əyazma nüsxələrinin yazılması üçün əlverişli şərait yaratdı. Atabəylər sarayında fəaliyyət göstərən alimlərin əlyazmaları indi də dünya mədəniyyət xəzinəsinin nadir incilərindəndir

Xacə Nəsrəddin əbu Cəfər Məhəmməd bən Məhəmməd Həsən Tusi (1201-1274) XIII əsrdə Şərqdə ən məşhur alimlərdən olmuşdur. Onun əsli Azərbaycanın Ordubad bölgəsindən olsa da təhsilini İranın Qum bölgəsinin Tus şəhərində almışdır. Ona görə də nəsəbəsi "Tusi" kimi qəbul olunmuşdur. Tusinin atası da dövrünün məşhur fəqihlərindən olmuşdur. Gənc yaşlarından atası ona yüksək təhsil vermiş, Nəsrəddin ədəbiyyata, elmi kəşflərə, xüsusilə, astronomiya elminə böyük maraq göstərmişdir. Gənclik illərini Tusda keçirən Nəsrəddin sonra Nişapura gedib Mühyəddin Salim bən Bədran, Kəmaləddin bən Yunis əl-Museli, Fəridəddin Damad Nişapuri kimi alimlərdən dərs almışdır. Monqol yürüşlərindən əvvəl bir neçə il ismaili hərəkatının tərkibində olmuşdur.

Hinduşah Naxçıvani (...-1330) XIV əsr Naxçıvan ziyalılarından olmuşdur. Onun barəsində məlumat verən Kəmaləddin ibn əl-Fuvatinin yazdığına görə Fəxrəddin Hinduşahın atası Səncər ibn Abdulla ən-Naxçıvaninin dörd oğlu: 1. Nəsrəddin Qutluğşah; 2.İzzəddin Dövlətşah; 3.Hüsaməddin Tuğunşah; 4. Fəxrəddin Hinduşah olmuşdur. Onlardan Fəxrəddin Hinduşah dövrünün görkəmli alimi kimi tanınmış, bir çox elmlərə-astronomiya, riyaziyyat və fəlsəfəyə, ədəbiyyatın müxtəlif sahələrinə xüsusi maraq göstərmişdir. Onun fars dilində gözəl şeirləri var. Şeirlərindən təxminən 50 beyt yalnız oğlu Şəmsəddin Məhəmmədin "Sihah əl-furs" lüğətində ayrı-ayrı sözlərə aid gətirilmiş misallar arasında qorunub saxlanılmışdır.

Orta əsrlər əcnəbi müəlliflərinin əlyazmalarında Naxçıvana dair qeydlərdə XI əsrdə Naxçıvan Rəvvadilər dövlətinin mərkəzi şəhəri olması və dövlətin rəsmi nümayəndələri Naxçıvan şəhərində yerləşməsi barədə araşdırmalar aparılmış, onların sarayında Əsədi Tusi, Qətran Təbrizi kimi şairlərin fəaliyyət göstərməsi tədqiqatın əsasını təşkil etmişdir. Araşdırmalarda məlum olur ki, əsli Tusdan olan Əsədi Tusi ilə bağlı rəvayətlər birbaşa Naxçıvanın XI əsr tarixi və əlyazma mətnlərinin yaranmasına aydınlıq gətirir. Xorasanda baş verən aclıqdan qaçan məşhur "Şahnamə" epopeyasının müəllifi Firdosinin müəllimi Əsədi Tusi Naxçıvan – Rəvvadi hökmdarı Əbu Duləfə pənah gətirir. Əbu Duləf onu çox səmimi qarşılayır və şairlərə böyük hörməti olduğunu söyləyir. Naxçıvan hökmdarı söhbətində deyir ki, siz tuslular epopeya yazmaqla məşhursunuz, gəl sən də bizim xalqın tarixi keçmişini, qəhrəmanlığını əks etdirən epopeya yaz.

Yazıya alınma yerindən çıxış etdikdə artıq qəti demək mümkündür ki, bu əlyazma ən qədim Azərbaycan kitabı sayıla bilər. Bu qədim əlyazma əsəri haqqında hələ K.İ.Çaykinin 1934-cü ildə verdiyi məlumatda da rast gəlinilir.

Ə.Tusi hökmdarın sifarişi ilə 1054-1056-cı illərdə 9 min beytlik "Gərşaspnamə" epopeyasını yazır. Ə.Tusi poemasında Naxçıvan hökmdarı Əbu Duləflə olan görüşünü belə təsvir edir:

***Layiqli iş gəzib hey fikirləşdim,***  
***Bəlkə hakim olum, ya dinə arxa,***  
***İşdən xəbərdar olmasın kimsə,***  
***Sən Naxçıvana gələndən bəri,***  
***Adımı tarixlərə necə yazım mən.***  
***Bəlkə şah yanında adi bir darğa.***  
***Yalnız Arran şahı yazsın tarixə.***  
***Şahın sayəsinə bəxtin gətirdi.***

Adət və ənənələrimizə aid olan əlyazmalar isə görkəmli alim Məhəmmədbaqir ibn Məhəmmədtəqinin əsərlərində rast gəlmək mümkündür. O, 1872-ci ildə yazdığı "Zadəl-məad" (Axirət-azuqəsi) əsərində Novruzla bağlı olan hadisələrdən bəhs etmişdir. Əsərdə alimlər arasında Novruz gününün nə zamandan mövcud olması təsvir edilir: "Rum təqvimi ilə Əyyar ayının onuncu və ya Şubat ayının doqquzuncu günü olması ehtimal verilsə də, əsasən ümumi fikir Şəmsi (Günəş) ilinin başlanması və Günəşin "həməl" ("qoç") bürcünə ilk girişini Novruz günü hesab etmişlər".

Əlyazmada göstərilir ki, Müəlli ibn Xənəs adlı şəxs imam Sadiq əleyhis-salamın səhabələrindən biri idi və o, imamdan Novruz gününün bir neçə fəlsəfi əhəmiyyətini və əlamətlərini soruşmuşdur. Birinci budur ki,Allah Təala bütün bəndələrinin ruhlarını yaratdı, onlardan əhdi-peyman aldı ki, Ona şərik qərar verilməsin və o günə "Ruzi-Ələst" deyilərək əvvəlinci gün, yəni "bəşərin yaradılışının başlanğıcı", yeni gün hesab edilsin, həmin gün də Novruz günü adlandı.

Əlyazmanın digər fəslində ilk dəfə günün çıxdığı, küləyin əsdiyi, ağacların sulanması və vəchə gəlməsi, güllərin və çiçəklərin yer üzünə yaraşıq verməsi ilə səpələnməsi məhz Novruz gününə təsadüf edilməsi qeyd



edilir. İlk insan əcdadı olan Adəm əleyhis-salamın xəlq olunması da Novruz gününə təsadüf etmişdir.

Başqa bir maraqlı cəhət bundan ibarətdir ki, əlyazmada Naxçıvana aid Nuh əleyhissalamla bağlı məlumat verilir. Qeyd edilir ki, tufandan sonra Nuh əleyhissalamın gəmisi böyük bir dağa dəyərək orada qərar tutmuş və Həqq-Təala ikinci yeni həyatın başlanmasını onlara bəxş etmişdir, həmin gün Novruz gününə təsadüf etmişdir. Əlyazmada Novruz Azərbaycan xalqının həyatında ən böyük bayramlardan biri kimi səciyyələndirilmişdir

M.B.Əliyevin "Qanlı günlərimiz" adlı əlyazması canlı şahid qeydləri və qan yaddaşımız kimi adlanan XX əsrin əvvəllərinə dair əlyazma mətnlərindəndir. Tədqiqatda bu gündəlik 1918-1920-ci illərdə Naxçıvanda baş verən siyasi hadisələrin xronologiyasını əks etdirən olduqca sanballı elmi mənbələr təhlil olunur. Əlyazmada Naxçıvanda baş verən siyasi hadisələr, xüsusilə erməni vəhşilikləri konkret faktlarla verilir. Əski əlifbada yazılan əlyazmanı professor T.Quliyev 1993-cü ildə transletrasiya edərək kiril əlifbası ilə dövlət nəşriyyatında "Qanlı günlərimiz" adı ilə çap etdirmişdir. Kitabın redaktoru H.Əlibəyli yazır: "Əsərdə türklərin Naxçıvana köməyə gəlməsi, İran, Rusiya, İngiltərə, Fransa, Amerika dövlətlərinin Naxçıvanda baş verən hadisələrə müdaxilə etmələri, həmçinin naxçıvanlıların düşmənə qarşı mərdlik və qəhrəmanlıqla vuruşmaları günbəgün, saatbasaat təsvir olunur. Əsərin bir əhəmiyyəti də ondadır ki, bu əlyazma bizə tariximizin ən qaranlıq səhifələri haqqında dəqiq məlumatlar verən mənbələrdən biridir".

Araşdırılan əlyazma mətnlərinin ən mühüm göstəricisi kimi onu deyə bilərik ki, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 30 dekabr 2023-cü il verdiyi tarixi sərəncam "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi"nin geniş qeyd edilməsi haqqında qanuna uyğun olaraq mühüm töhfə sayıla bilər. aparılan araşdırmalar həm Naxçıvanın tarixi keçmişini, həm bu gününü, həm də gələcəyini yaşada bilən mühüm əlamətlərlə bağlıdır. Ümid edirik ki, bütün sahələrdə olduğu kimi, mətnşünaslıq sahəsində də Naxçıvanın rolu danılmaz olaraq qalacaq və bu mədəniyyət xəzinəsi gələcək nəslin milli-mənəvi dəyərlər istiqamətində maariflənməsinə xidmət edəcəkdir.

***Səbuhi İbrahimov***  
***AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun şöbə müdiri, dosent***

## Rektor Elbrus İsayev “Açıq mikrofon” layihəsi çərçivəsində xarici tələbələrin suallarını cavablandırıb

Artıq bir ənənə halını alan layihə çərçivəsində bu dəfəki görüş ali təhsil ocağının əcnəbi tələbələriylə keçirilib. Tədbirdə universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru Aidə Cəlilzadə, Ümumi işlər üzrə prorektor Xəyal Camalov, Tibb fakültəsinin dekanı İlhamə Mustafayeva iştirak ediblər.

Rektor qeyd edib ki, rəhbərlik etdiyi ali təhsil ocağı əcnəbi tələbələrin sayca üstünlüyü ilə digər universitetlərdən fərqlənir. Xarici tələbələrin həm tədris mühitində, həm də ictimai işlərdə xüsusi fəallıq göstərdiyi vurğulanıb. Elbrus İsayev bildirib ki, onlar yerli tələbələrlə bərabər Tələbə Elmi Cəmiyyəti xətti ilə müvafiq sahələr üzrə elmi işlər yazır, müəllimlərlə bərabər tədqiqat aparırlar, əlamətdar tarixi günlərdə keçirilən tədbirlərdə, idman və digər intellektual yarışlarda aktiv iştirak edirlər.



Rektor vurğulayıb ki, xarici tələbələrin ekskursiyalarda, gəzintilərdə olması da daim diqqət mərkəzində saxlanılır.

Sonra söz Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Hüseyn İmanovun moderatorluğunda tələbələrə verilib. Elbrus İsayev 3 saat ərzində xarici tələbələrin 30-dan çox sualını ətraflı cavablandırıb, müraciət və təkliflərini dinləyib. Sualların



çoxunu əcnəbi tələbələrin ən çox təhsil aldığı Tibb fakültəsinin tələbələri ünvanlayıblar.

Elbrus İsayev Türkiyə Ali Təhsil Qurumu ilə Naxçıvan Dövlət Universitetinin rəsmi qaydada həyata keçirilən münasibətlərindən danışıb. Qeyd edilib ki, bütün sahələrdə olduğu kimi təhsil sahəsində də Türkiyə ilə əlaqələr əməli işlər üzərində qurulub. Tibb sahəsində qardaş ölkənin mükəmməl elmi və təcrübi bazaya malik olan ali təhsil ocaqları ilə qurulan səmərəli əməkdaşlıq barədə ətraflı məlumat verilib.

Tələbələrin aidiyyatı sahələr üzrə bəzi suallarını universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru Aidə Cəlilzadə, Ümumi işlər üzrə prorektor Xəyal Camalov, Tibb fakültəsinin dekanı İlhamə Mustafayeva cavablandırıblar.

## “Yerli texnoloji startapların inkişafının təşviqi” layihəsinin nümayəndələri Naxçıvan Dövlət Universitetində olublar

Naxçıvan Dövlət Universitetində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət



və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və Asiya İnkişaf Bankının birgə həyata keçirdiyi “Yerli Texnoloji Startapların İnkişafının Təşviqi” layihəsi çərçivəsində görüş keçirilib.

Universitet rəhbərliyi ilə keçirilən görüşdə AİB-nin Azərbaycandakı nümayəndəliyinin əməkdaşı, Azərbaycan Rezident Missiyasının rəhbəri Səbinə Cəfərova və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin nümayəndə heyəti iştirak ediblər.

Görüşdə ali təhsil ocağının rektoru Elbrus İsyaev qonaqları salamlayaraq onları universitetdə görməkdən məmnunluğunu ifadə edib.

Rektor belə startap layihələrinin keçirilməsində Naxçıvan Dövlət Universitetinin kifayət qədər təcrübəsi olduğunu önə çəkib və bir neçə gün öncə ali təhsil ocağının təşkilatçılığı ilə baş tutan “Robotex Azərbaycan” festivalı haqqında qonaqlara məlumat verib. Qeyd edilib ki, Robotexdə mükafatlandırılan 163 komandadan 6-sı Naxçıvan Dövlət Universitetinin komandası olub.

Elbrus İsayev çıxışının sonunda bu işbirliyinin Naxçıvanda ümumi startap ekosisteminin inkişafına töhfə verəcəyindən əminliyini ifadə edib.

Sonra layihə mütəxəssisləri və təmsilçiləri layihə çərçivəsində görüləcək işləri qeyd ediblər. Bildirilib ki, universitetdə təhsilalanların startaplar haqqında məlumatlılıq səviyyəsinin öyrənilməsi, startapların idarə olunması ilə bağlı təlimlər nəzərdə tutulub. Universitetin strategiyasının innovasiyalar və startaplar baxımından təhlili, informasiya transferi, eləcə də universitetin startaplarla bağlı yerli və beynəlxalq əlaqələrinin genişləndirilməsi əsas məsələlərdəndir.

Sonra nümayəndə heyətinin tələbələrlə görüşü baş tutub, layihələr haqqında ətraflı məlumat verilib, tələbələri maraqlandıran suallar ətraflı cavablandırılıb.

## Elm günü qeyd edilib

Ali təhsil ocağının Magistratura və doktorantura mərkəzində keçirilən tədbirdə çıxış edən universitetn rektoru Elbrus İsayev 2018-ci il aprelin 9-da



Prezident İlham Əliyevin cəmiyyətin inkişafında elmin əhəmiyyətini nəzərə alaraq Azərbaycan Respublikasında “Elm günü”nün təsis edilməsi haqqında Sərəncamını diqqətə çatdırıb. Bildirilib ki, ölkə başçısı Azərbaycan elminin inkişafına, Azərbaycan təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyasına yönəlmiş bir sıra addımlar atır. Qeyd edilib ki, universitetdə aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması məqsədilə Magistratura və doktorantura mərkəzi, Gənc alimlər şurası və Tələbə Elmi Cəmiyyəti fəaliyyət göstərir. Rektor universitetdə fəlsəfə doktorluğu və elmlər doktorluğu proqramları üzrə elmi dərəcəli kadr hazırlığının həyata keçirildiyini qeyd edib. Beynəlxalq Elmmetrik bazalara çıxış imkanının yaradıldığını qeyd edən Elbrus İsayev NDU-da fəaliyyət göstərən 110 professor-müəllim heyətinin Google Scholar bazasında elmi məqalələrinə istinad etmə sayının illər üzrə 2538 olduğunu bildirib. Vurğulanıb ki, bu bazada 110 əməkdaşın ümumi H indeksi 208-dir. Rektor qeyd edib ki, Google scholar bazasında i10 indeksi olan əməkdaş sayı 18 olub, onların ümumilikdə 55 məqaləsinə ən azı 10 dəfə istinad edilib. H indeksinə görə ölkəmizdə Top 1000-də universitetimizin 14 əməkdaşı təmsil olunmaqdadır. Rektor universitet əməkdaşlarının 7 beynəlxalq layihədə iştirakı, patent və ixtiraları barədə məlumat verib. Elbrus İsayev elmi fəaliyyətlə məşğul olan hər kəsi təbrik edib, bu sahədə uğurlar arzu edərək elmin inkişafında, cəmiyyətin tələbatlarını ödəyə biləcək səviyyəyə gətirilməsində səylərini əsirgəməməyə çağırıb.

Elm və innovasiya məsələləri üzrə prorektor Elsevər Əsədov “Naxçıvan Dövlət Universitetinin elmi mühiti: mövcud vəziyyət və perspektivlər” adlı çıxışı dinlənilib.

Magistratura və doktorantura mərkəzinin direktoru Çapay Quliyev “Böyük elmə gedən yol”, TEC sədri, doktorant Təbrizə Bağırova “Müasir elmi çağırışlar: doktorantura təhsilinin imkanları” mövzusunda məruzələr ediblər.

Tədbir AMEA-nın həqiqi üzvü, Əczaçılıq və biokimya kafedrasının professoru Taryel Talıbovun, NDU-nun məsləhətçi professoru İsmayıl Əliyevin, AMEA-nın müxbir üzvü, NDU-nun məsləhətçi professoru Hacıfəxrəddin Səfərlinin çıxışları ilə davam edib.

Sonda NDU-nun elmi mühitinin formalaşmasında səmərəli fəaliyyətinə görə bir qrup əməkdaşa təşəkkürnamə təqdim olunub.

## Naxçıvan Dövlət Universitetinin futzal komandası ölkə çempionu olub

Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr edilmiş tələbələr arasında futzal turnirinə yekun vurulub.



Final qarşılaşmasında Naxçıvan Dövlət Universitetinin komandası Mingəçevir Dövlət Universitetinin komandasına 3:1 hesabı ilə qalib gələrək ölkə çempionu olub.

III yer uğrunda mübarizədə Lənkəran Dövlət Universitetinin komandası Bakı Neft və Energetika Kollecinin komandasına qalib gəlib.

Oyunlardan sonra Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr edilmiş tələbələr arasında futzal yarışlarının qaliblərinin mükafatlandırılma mərasimi keçirilib.

Tədbirdə Elm və Təhsil Nazirliyinin, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının, Azərbaycan Tələbə Futbol Federasiyasının, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının, Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin, Naxçıvan Dövlət Universitetinin rəsmi şəxsləri, veteran futbolçular iştirak ediblər.

Bağlanış mərasimində çıxış edənlər Naxçıvan Muxtar Respublikasının yaranma tarixindən danışıb, turnirin ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında futzalın təbliğində, perspektivli idmançıların aşkar edilməsində xüsusi rol oynadığını, daşıdığını qeyd ediblər.

Çıxışlardan sonra turnirdə fərqlənən üç tələbə-futbolçu “Ən yaxşı müdafiəçi”, “Ən yaxşı qapıçı”, “Ən yaxşı oyunçu” nominasiyaları üzrə xüsusi mükafatla təltif olunub, qalib komandalara medal və pul mükafatı, çempion komandaya kubok təqdim edilib.

Qeyd edək ki, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının dəstəyi ilə keçirilən turnirdə 19 ali və orta ixtisas təhsili müəssisəsinin komandaları iştirak edib.

Turnirin keçirilməsində məqsəd Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd olunması, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələrinin futzala olan marağının artırılması, onlar arasında futzal idman növünün təbliğ edilməsi, tələbələrdən ibarət futzal üzrə yığma komandanın formalaşdırılmasından ibarət olub.

***Məmmədbağır Dünyamalıyev***

## “Femida Könüllüləri Təşkilatı” İctimai Birliyi Naxçıvan nümayəndəliyi fəaliyyətə başlayır

2024-cü ilin martın 6-da Naxçıvan Dövlət Universiteti ilə “Femida Könüllüləri Təşkilatı” İctimai Birliyi arasında könüllülük fəaliyyətinin təşkili ilə bağlı memorandum imzalanıb.

Memorandumun imzalanma mərasimində Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev könüllülük təşkilatının fəaliyyətini yüksək qiymətləndirərək bildirib ki, tələbələrin



günün tələblərinə uyğun, əmək bazarının tələbatına cavab vermək potensialına malik, hazırlıqlı formaya çatması baxımından ictimai birliyin fəaliyyəti diqqətəlayiqdir. Könüllülük fəaliyyətinin təşkili ilə bağlı memorandumun imzalanması Naxçıvan Dövlət Universitetinin tələbələrinə gələcəkdə geniş imkanlar yaratmaqla onların bilik və təcrübələrinin artırılmasına, nəzəriyyədə qazandıqları biliklərin təcrübədə də istifadə bacarıqlarının formalaşmasına böyük töhfə verəcək.

“Femida Könüllüləri Təşkilatı” İctimai Birliyinin sədri Nilgün Məmmədova da çıxışında təşkilatın fəaliyyət istiqamətləri və hədəfləri barədə məlumat verərək bildirib ki, universitetlə imzalanan memorandum gələcəkdə birgə həyata keçiriləcək yeni layihələr üçün hüquqi əsas rolunu oynayacaq.

Daha sonra ictimai birliyin iş prinsipi, fəaliyyətinin əsas məqsədləri, həyata keçiriləcək layihələr, könüllülük proqramlarına müraciət, seçim prosedurları və digər detallar barədə tələbələrə geniş izahlar verilib.

## Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə həsr olunmuş universiada keçirilib

Açılış tədbirində universitetdə idmanın inkişafına göstərilən dövlət qayğısından danışan rektor bildirib ki, ali təhsil ocağında idmanın kütləviliyinə diqqət yetirilir. Rektor İdman kompleksinin yenidən təmir olunması, yeni idman ixtisaslarının əlavə olunmasını muxtar respublikada idmana göstərilən yüksək dövlət qayğısının bariz nümunəsi kimi dəyərləndirib. Bildirilib ki, həmçinin idman sahəsinə aid müxtəlif metodik vəsaitlər hazırlanır, idmançı kadrlar yetişdi-



rilir. Elbrus İsayev vurğulayıb ki, XV Universiada yarışlarında idmançı tələbələrlə yanaşı, həmçinin qeyri-ixtisasdan olan



tələbələr də yer alıb. Rektor universiadada mübarizə aparacaq komandalara uğurlar arzulayıb.

Tədbirdə Bədən tərbiyəsi kafedrasının dosenti, İdman klubunun sədri Məmmədəli Rəhimov bildirib ki, universitetdə davamlı olaraq iki ildən bir universiadalar təşkil edilir. Həmçinin vurğulanıb ki, universiada basketbol, voleybol, tennis, stolüstü tennis və digər müxtəlif idman növlərindən ibarət olacaq.

Sonra fakültələr arası voleybol yarışına start verilib.

***Tərlan İbrahimova***
***“Jurnalistika” ixtisasının***
***III kurs tələbəsi***

# Bahar səsli, yaz nəfəsli Novruz!

Novruz bayramı Şimal yarımkürəsində yazın başladığını, gecə və gündüzün bərabərləşdiyi gündən, yəni martın 21-dən başlayıb 25-ə qədər qeyd olunur. Bir sıra xalqlar yaz fəslinin gəlişini təbiətin canlanması ilə bağlamış və bu münasibətlə şənliklər keçirmiş,yeni ilin başlanğıcı olaraq bayram qeyd etmişlər. Bu bayram sadecə Azərbaycanda deyil, həmçinin Tacikistan, Əfqanıstan, Özbəkistan və bu kimi bir çox şərq ölkələrində təmtəraqla qeyd olunur. Bir çox Avropa və Asiya ölkələrində yeni ilin gəlişini yanvar ayının 1-i qeyd olunduğu halda İran və Əfqanıstanda bu martın 21-dən yeni il hesab olunur.



Novruz bayramı təbiətin oyanışı, torpağın canlanması deməkdir. Kənd yerlərində yaşayan və təsərrüfat ilə məşğul olan insanlar əkin-biçin işlərinə start verirlər.

Nizamülmülkün "Siyasətnamə" əsərində Novruz bayramından yazın gəlişi ilə əlaqədar keçirilən kütləvi xalq bayramı olaraq bəhs olunmuşdur.

Novruzun olmazsa olmazları bayramla əlaqədar keçirilən rəngarəng oyunlar, adət-ənənələrdir. Bu oyunlardan ən məşhuru "bunlara atırma, halay, bənövşə, cıdır-ənzəli, kos-kosa" və.s bu kimi bir çox oyunlardır.

Novruz qeyd olunmazdan əvvəl onun müjdəçiləri-çərşənbələr qeyd olunur. Hansı ki, bu çərşənbələr baharın müjdəçisi, ilk bayram sevincləridir. Azərbaycanın müxtəlif regionlarında çərşənbələr fərqli və maraqlı şəkildə adlandırılıb. Ən geniş yayılmış məşhur sıralama belədir:

1) Yalançı çərşənbə- Su
2) Xəbərçi çərşənbə-Od
3) Ölü çərşənbəsi- Yel
4) İlaxır çərşənbə- Torpaq.

Su çərşənbəsi: Xalq arasında "yalançı, əzəl" çərşənbə də deyilir. Bahara doğru buzlar əriyir, çayların, göllərin donu açılır, torpaq ağaclarla birgə oyanır, ətraf yavaş-yavaş canlanır. Bu çərşənbə səhəri sübh azanından sonra qızlar, gəlinlər bulaqlara , axar sulara gedər, sərin, şirin çərşənbə suyundan gətirib evlərinin ətrafına çiləyər, həmin su ilə əl-üzlərini yuyarlar.

Od çərşənbəsi: Xalq arasında "xəbərçi, üskü" çərşənbədə adlanır. Bahara doğru günəş torpağı isidir, onu yeni neymətlərə hazırlayır. Bu çərşənbə hər ocaqda bir tonqal qalanar, ailə üzvlərinin sayı qədər şamlar yandırılar, bayram xonçası bəzənər.

Yel çərşənbəsi: Yel artıq azacıq oyanmış, torpağı, təzəcə açmış bahara həsrət tər gülləri tərpədər, tumurcuqlanmış ağacları yellədər. Bu çərşənbə əksər bölgələrimizdə "ölü çərşənbə, qara çərşənbə" olaraq adlanır. Həmin gün insanlar yaxınlarının məzarlarını ziyarət edər, ruhlarına dualar oxuyar, qəbirlərini qışın palçığın-



dan, toz-torpağından təmizləyərlər. Bu çərşənbə ailəsində yas olan evləri ziyarət edər və ailə üzvlərinin bayramı hamı ilə birgə qeyd etmələri təmin olunar.

İlaxır çərşənbə - Torpaq çərşənbəsi: artıq torpaq yazın saf suyuyla islandı, günəşlə isindi, ilk yaz yeli ilə tərpəndi,artıq əkinə hazırdır. Həmin çərşənbə günü, məhz torpaq çərşənbəsi ilk əkin işlərinə başlanılar, bu torpağın il boyu barlı- bərəkətli olmasına səbəb olar. Bu çərşənbə keçirilən şənliklər hətta Novruz sevincini belə üstələyər. Bağ- bağça əkin üçün hazrırlanar, daş- kəsəkdən təmizlənər.

Bu bayramın ən gözəl özəlliyi müxtəlif, rəngarəng adət-ənənələrin olmasdır. Bu bayram evlərə torba atılar, qulaq falına çıxılar, küsülülər barışar, şamlar yandırılar, səməni cücərdilər və.s

Novruz bayramı Azərbaycanla yanaşı İran, Türkmənistan, Tacikistan, Pakistan, Qazaxıstan, Qırğızıstanda da xüsusi təmtəraqla qeyd olunur.

İran'da müxtəlif səmənilər olur süfrədə və bu səmənilər mərcidən cücərdilir.

Əfqanıstan' da bayram süfrəsi stolda deyil, yerdə olur və buna " dəstərxan" deyilir. Bayramda süfrəyə kampota bənzər bir təam qoyulur. Bu təama "həft meyvə", yəni 7 meyvə deyilir. Bu təam Əfqanıstanda ilin hər hansı bir ayında deyil, məhz Novruz bayramında hazırlanlr.

Qırğızıstan' da bayramda qırğız mətbəxinə məxsus "beşbarmaq" hazırlanır. Bu yemək əllə yeyildiyi üçün elə adlandırılır.

Tacikistan' da Novruz bayramı ayın 20-dən başlayaraq 3-4 gün qeyd olunur. Uşaqlar yazın ilk çiçəklərini dərib evlərin qapısını döyülər və çiçəkləri ev sahiblərinə bağışlayırlar, qarşılığında isə yumurta, konfet və ya pul alırlar.

Özbəkistanda Novruza özəl "nişala" hazırlayırlar.

Hər bir ölkənin bayram qeyd etmə şəklini araşdıran zaman marağımı cəlb edən bir çox məqamlar oldu amma ən zəngin, ən rəngarəng adət-ənənənin məhz bizim ölkəyə məxsus olduğunun fərqinə vardım. Ölkəmizə, millətimizə toy- bayram yaraşır, qoy elimizdə hər zaman xoşbəxt, gözoxşayan bayramlar qeyd olunsun. Süfrəniz bol ruzili bərəkətli, ürəyinizdəki sevgi daimi, münasibətləriniz hər zaman mehriban, əsl səmimiyyətli olsun.

***Bayramınız mübarək!***

***Nəzrin İsmayılova***
***"Jurnalistika" ixtisasının I kurs tələbəsi***

## Naxçıvan Dövlət Universitetində Novruz bayramı xüsusi təntənə ilə qeyd olunub

Ali təhsil ocağının Konservatoriya binasında təşkil edilən tədbirdə universitetin rektoru Elbrus İsayev Novruzun xalqımızın ən əziz bayramlarından biri olduğunu qeyd edib. Bayramın ölkəmizdə dövlət səviyyəsində qeyd olunmasının ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğu bildirilib. Bayramın tarixi kökləri, özünəməxsusluğu, o cümlədən, birlik qardaşlıq bayramı olduğunu bildirən rektor diqqətə çatdırıb ki, Novruz 2009-cu il sentyabrın 30-da YUNESKO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilib. 2010-cu ildə BMT Baş Assambleyasının 64-cü sessiyasında martın 21-i Beynəlxalq Novruz Günü elan olunub. Vurğulanıb ki, müzəffər Ali Baş Komandanımız və qüdrətli ordumuzun sayəsində artıq işğaldan azad edilən qədim yurd yerlərimizdə də ton-




qallar qalanır, ölkəmiz bu milli bayramı yüksək əhval-ruhiyyə ilə qeyd edir. Bayram ruhunun bütünləşən torpaqlarımızda qürur hissi ilə yaşandığını deyən rektor bununla da ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizin ruhunun şad olduğunu qeyd edib. Gənclərə milli-mənəvi dəyərlərimizə hər zaman hörmətlə yanaşmağı tövsiyyə edən Elbrus İsayev hər kəsi bayram münasibətilə təbrik edib, onlara cansağlığı və firavan həyat arzulayıb.

Bədii rəhbəri və rejissoru Teatr və mədəniyyətşünaslıq kafedrasının müdiri, Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət İşçisi Gülxarə Əhmədova olan tədbir ilk olaraq Musiqi kollecinin nağaraçalanlar ansamblının gözəl ifaları ilə başlayıb. Tədbirdə bayramın tarixi dəyərini, xalqımızın adət-ənənələrini, Novruz rəmzlərini əks etdirən nümunələr, tələbələrin hazırladıqları səhnəciklər nümayiş etdirilib. Novruzun rəmzlərindən olan Kosa və Keçəlin məzəli çıxışı, yumurta döyüşdürməsi maraqla qarşılanıb. NDU-nun Beynəlxalq Məktəbinin şagirdlərinin ifasında "Naz eyləmə" rəqsi, Tibb kollecinin, Texniki kollecinin tələbələrin, Tələbə Teatr Studiyasının Yallı və rəqs qrupunun ifasında Söylə, Xələfi, Köçəri, Tənzərə yallısı milli-mənəvi dəyərlərimizin daşıyıcısı kimi hər kəsdə xoş ovqat yaradıb.



Tədbirdə həmçinin idmanın güləş növündə təmsil olunan Pedaqoji fakültəsinin tələbələrinin nümunəvi çıxışları sərgilənib.

İncəsənət fakültəsinin sərgi salonunda rəngkarlıq, bədii tikmə, dekorativ tətbiqi sənət nümunələri olmaqla 70-dən artıq əl işləri nümayiş olunub. Sərgilənən yaradıcılıq işlərində Novruz bayramının özünəməxsus adət-ənənələri, milli kaloriti əks olunub.

Konservatoriyanın akt zalında davam edən konsert proqramında "Xalq çalğı alətləri" kafedrasının "Buta" instrumental ansamblının ifasında bir-birindən gözəl, könüloxşayan mahnılar səsləndirilib.




Sonda universitetin həyətində möhtəşəm Novruz tonqalı alovlandırılıb, tələbələr tonqal ətrafında dövrə vuraraq yallı rəqsini ifa ediblər.

Tələbələr milli musiqilərimiz və rəqslərimizi ifa etməklə hər kəsə maraqlı anlar yaşadıblar.

Nəzərinizə çatdıraq ki, Novruz şənliyi universitetin Beynəlxalq Məktəbində və universitetin nəzdində fəaliyyət göstərən Texniki Kollecdə davam edib.

***Səadət Əliyeva***
***Media və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## Bahar fəsli yaz ayları gələndə...

Hər zaman uşaq ikən düşünürdüm. Niyə ağaclar gah yaşıl yarpaqlı olur, gah yarpaqlarını tökür, gah da çiçək açırdı. Sonra babamdan soruşdum. "Niyə ağaclar və ətaf bir müddətdən sonra fərqli olur? Babam dedi: - Təbiətin 4 paltarı var, qızım. Hər birinin də ayrı gözəlliyi və özəlliyi. Yazda təbiət çiçəkli donunu geyinir, yayda yaşıl şalını üstünə salır, payızda sarı pencəyini,qışda isə ağ kürkünü geyinir.

Babam fəsilləri Mənə başa salırdı və Məndən hər fəsli müşahidə etməmi istəyirdi.Məndə fəsillərin gözəlliyini özüm gördüyüm kimi izah edirdim.



Artıq fəsilləri müşahidə edir, onlarla böyüyürdüm. Hər fəsil fərqli gəlirdi Mənə, hamısı fərqli cür sevdirirdi özünü. Yayda ağaclar bol meyvə verir, hava istiləşir, insanlar tətilə çıxıb təbiətin isti qoynunda dincəlirlər. Payız Mənim fəslim idi. Hər payız bir yaş daha böyüyürdüm, daha çox dərk edirdim ərtaf aləmi.

Qış fəslini də sevirdim. Babam demişkən hava soyuq olduğundan təbiət ağ kürkünü geyinir, hər yer bəyaz örpəyə bürünür.

Amma bir fəsil var idi. Nədənsə Mənə xoş təəssürat bağışlayırdı. Bu yaz, digər adı ilə bahar fəsli idi. Elə ilk yaz fəsli başlayır. Hava çox xoş olur. Ağaclar tumurcuqlayıb, çiçək açır öz gözəl və təravətli qoxusunu ətrafa yayır. Qışdan köçüb getmiş quşlar qatar-qatar sevinclə öz yuvalarına qayıdırdı.Təbiət qoynunda gözəl çiçəklər böyüdür, rənglərinə rəng qatırdı. Arabir yağış yağıb, narın damlaları ilə çiçəkləri sulayırdı.Səhər sübhdən günəş çıxır, öz gülümsəməsiylə ətrafı aydınladırdı.

Baharı Mənə daha çox sevdirən isə bu fəsildəki "Novruz bayramı" dır. Müjdəçi quşların gəlişi ilə insanlar baharın, bayramın da xəbərini alırlar. Hər bölgədə insanlar Novruzu fərqli adət-ənənə ilə qarşılasalarda, hər biri eyni sevinc və səmimiyyətlə bayram tədarükləri görürlər.

Hər kəs evində səməni əkir, yumurta bəzəyir, süfrə üçün müxtəlif təamlar bişirir.

Babamın Mənə təbiəti, fəsilləri müşahidə et deməsiylə başlamışdı hər şey. Daha çox düşünürdüm, daha çox sual verirdim.Təbiətə dair hər şeyi özüm öyrənmək istəyirdim. Böyüdükcə öyrənirdim, öyrəndikcə böyüyürdüm. Fəsilləri özümə görə uyğunlaşdırır, onların hər incəliyinə nəzər yetirib özüm üçün vəsf edirdim.

İndi böyümüşəm, fəsillər haqqında düşüncələrim daha da üstünə gəlib. Amma hər fəsli eyni uşaq vaxtımdakı kimi sevirəm. Eyni həyəcanla eyni sevinclə qarşılayıram.

***Pərvin Səfərzadə***
***"Jurnalistika" ixtisasının I kurs tələbəsi***

# 10 Mart - Milli Teatr Günüdür

Mart ayı bayramlar ayıdır. Bu bayramlardan biri azərbaycançılıq məfkurəsinin formalaşmasında maarifçilik ideyalarının yayılmasında, milli adət-ənənələrin təbliğində əvəzsiz rol oynayan Azərbaycan milli teatrının yaranmasıdır.

1873- cü il 10 mart tarixində görkəmli ziyalı Həsən bəy Zərdabinin təşəbbüsü və rəhbərliyi ilə Bakı realnı gimnaziyasının şagirdlərinin iştirakı ilə böyük mütəfəkkir Mirzə Fətəli Axundovun "Şərgüzəşti vəzirxani Lənkəran" komediyasının tamaşası ilə Azərbaycan peşəkar teatrının əsası qoyulmuşdur. Bakıda təməli qoyulan teatrın əks-sədası tezliklə ölkənin bölgələrinə də yayıldı. İlk tamaşanın uğurundan ruhlanan ziyalılar yaşadıqları bölgələrdə teatr truppaları yaradaraq xalqın cəhalət yuxusundan oyanmasına təkan verdilər.

Uzun və şərəfli tarixi yol keçmiş Azərbaycan teatrının inkişafında son illərdə yeni mərhələ başlayıb. Bu inkişaf özünü, ilk növbədə, teatrların maddi-texniki bazasının müasir dünya standartlarına uyğun möhkəmləndirilməsində, kollektivlərin yaradıcılıq axtarışlarının bəhrəsi olaraq yeni maraqlı tamaşaların hazırlanmasında, nüfuzlu Qərb, o cümlədən Avropa teatrları ilə təcrübə mübadiləsinin genişləndirilməsində və s. göstərir.

Şübhəsiz, teatrlarımızın yeni inkişaf yoluna çıxmasında ölkəmizə rəhbərliyinin bütün dövrlərində daim mədəniyyət və incəsənətin böyük hamisi kimi bu sahədə çalışanların sonsuz rəğbətini qazanmış Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xidmətləri misilsizdir.

Naxçıvan teatrı yarandığı dövrdən maarifçilik mövqeyində durmuş, Azərbaycan teatr sənətinin qüdrətli nümayəndələri ilə əlaqələr saxlamış, öz həmkarlarının mənəvi dəstəyini daim hiss etmişdir. Eynəli bəy Sultanov, Cəlil Məmmədquluzadə, Qurbanəli Şərifzadə, Məhəmmədtağı Sidqi, Əliqulu Qəmküsar və başqa görkəmli ziyalılarımız teatrın inkişafı sahəsində sərt sınaqlara dözərək əsl fədakarlıq göstərmişlər. Naxçıvan teatrının yarandığı illərdə bu sənət ocağının təşəkkülü üçün Bakıdan Naxçıvana gələn qüdrətli sənətkarların Naxçıvan teatrının aktyorları ilə birlikdə tamaşalar göstərməsi, sənət dostlarına mənəvi dəstək olması teatrımızın peşəkarlıq səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur.

Teatrlara, sənət adamlarına böyük qayğı ilə yanaşan ümummilli lider Heydər Əliyevin səyi və köməyi nəticəsində ötən əsrin 70-ci illərində milli teatr sənətimiz sürətli inkişaf yoluna qədəm qoymuşdur. Ulu öndər xalqımızın zəngin yaradıcılıq ənənələrinə malik olan teatr sənətinə yüksək qiymət verərək demişdir: "Teatr Azərbaycanda mədəniyyətin, xalqımızın milli ruhunun, milli dirçəlişinin inkişafında, ümumiyyətlə, xalqımızın mədəni səviyyəsinin yüksəldilməsində böyük rol oynamışdır".

Böyük dövlət xadimi Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci dövründə milli teatrımız inkişaf etmiş, peşəkar aktyor və rejissor kollektivi formalaşmışdır. Müstəqillik illərində isə ümummilli liderimizin rəhbərliyi ilə səhnə sənətimiz yeni inkişaf mərhələsinə qədəm qoymuş, bu sahədə böyük uğurlar qazanılmışdır. Bu dövrdən başlayaraq teatrlara diqqət və qayğı artırılmış, yazıçı, aktyor və rejissorların yaradıcılıq şəraitlərinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, onların əməyi qiymətlən-dirilmişdir. Teatr kollektivlərinin əməkhaqları artırılmış, aktyorların, rejissorların, dramaturqların, rəssamların, bəstəkarların



yubileyləri geniş qeyd edilmiş, teatrlarımızın beynəlxalq əlaqələri genişlənmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən teatrlara diqqət və qayğı bu gün uğurla davam etdirilir. Son illər bu sahədə mühüm islahatlar həyata keçirilmiş, teatr binaları yenidən qurulmuşdur. 2006-cı ildə qəbul olunmuş "Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, ölkə başçısının "Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında" 2007-ci il 19 fevral tarixli Sərəncamı, 2009-cu ildə təsdiq edilmiş "Azərbaycan teatrı 2009-2019-cu illərdə Dövlət Proqramı" milli teatrımızın maddi-texniki bazasının möhkəmləndirilməsi, kollektivlərin yaradıcılıq potensialının inkişaf etdirilməsi baxımından mühüm rol oynamışdır. Ölkə başçısının "Azərbaycan teatrlarının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 2019-cu il 4 mart tarixli Sərəncamı da teatr sənətinin inkişafına göstərilən diqqətin daha bir ifadəsidir.

Azərbaycan teatrının 10 illik inkişaf perspektivlərini müəyyənləşdirən Dövlət Proqramı öz fəaliyyəti ilə milli-mədəni sərvətə çevrilən teatrımızın zəngin bədii irsinin və yaradıcılıq ənənələrinin qorunması, Avropa mədəniyyətinə inteqrasiya olun-



ması, teatrların maddi-texniki bazalarının modernləşdirilməsi, teatr binalarının dünya standartlarına uyğun təmiri, informasiya və maliyyə resurslarından səmərəli istifadə edilməsi və repertuarın günün tələblərinə uyğun formalaşdırılması məqsədlərinə xidmət edir.

Bu gün muxtar respublikamızda teatr və incəsənət sahələri üzrə ixtisaslı kadrların hazırlanması işinə xüsusi əhəmiyyət verilir. 2001-ci ildə Naxçıvan Dövlət Universitetində Teatr və mədəniyyətşünaslıq kafedrasının, 2011-ci ildə isə Aktyor sənəti ixtisasının fəaliyyətə başlaması muxtar respublikamızda ixtisaslı aktyor kadrlarına olan tələbatın ödənilməsi probleminin həll edilməsində mühüm əhəmiyyət kəsb edir. Bu işdə ali teatr məktəbləri ilə yanaşı, universitetlərdə yaradılan studiyalar da əhəmiyyətli rol oynayır. Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən Tələbə Teatr Studiyası buna nümunə sayıla bilər.

Studiya universitetin mədəni həyatının tərkib hissəsinə, çoxminli kollektivin mənəvi-estetik ehtiyaclarının ödənilməsi işinə xidmət edən mədəniyyət ocağına çevrilmişdir. Aktyorluq ixtisası ilə yanaşı, müxtəlif ixtisaslarda təhsil alan tələbələri öz ətrafına toplayan bu studiya hazırladığı



tamaşalarla nəinki universitetin müəllim və tələbə heyətinin rəğbətini qazanmış, həmçinin muxtar respublikadan kənarda, qonşu ölkələrdə də uğurlar əldə etmişdir.

Studiya 1999-cu ildən fəaliyyət göstərir. İlk tamaşamız "Kitabi-Dədə Qorqud" dastanlarının motivləri əsasında, tanınmış alim, dramaturq Kamal Abdullanın "Beyrəyin taleyi" əsəri əsasında hazırlanmış "Beyrəyin andı" tamaşası olmuşdur. Tamaşa ilk dəfə olaraq 1999-cu il may ayının 29-da Naxçıvan Dövlət Universitetinin səhnəsində tamaşaçılara təqdim edilmişdir. O zaman tanınmış sənətşünaslar tamaşa haqqında xoş sözlər söyləmişlər. Həmin il iyul ayında Türkiyə Cümhuriyyətinə dəvət olunmuş kollektiv Bayburt şəhərində uluslararası "Dədə Qorqud – 1300" mədəniyyət və sənət festivalında "Beyrəyin andı" tamaşasını uğurla nümayiş etdirmiş, festivalın xüsusi diplomuna layiq görülmüşdür.

Azərbaycan teatrı 151 il müddətində böyük inkişaf yolu keçərək dünya teatr proseslərinə inteqrasiya edərək, fərqli janr və formada tamaşaları ilə xalqa uğurla xidmət edir.

Milli teatrın yaranması hər il ölkəmizdə təntənə ilə qeyd edilir. 2013-cü ildən möhtərəm prezidentimiz İlham Əliyevin fərmanı ilə rəsmi dövlət bayramı kimi qeyd edilən 10 Mart Milli Teatr günü teatr xadimləri üçün həm də bir hesabatdır.

***Kamran Quliyev***
***Xalq artisti, Teatr və mədəniyyətşünaslıq kafedrasının baş müəllimi***

## 10 Mart - Milli Teatr Günü qeyd edilib

Universitetin rektoru Elbrus İsayev sənət adamlarına diqqət və qayğı ilə yanaşan ölkə Prezidenti İlham Əliyevin 2013-cü il sərəncamına əsasən, hər il 10 martın ölkəmizdə Milli Teatr Günü kimi qeyd edildiyini bildirib.

"1873-cü il martın 10-da əsası qoyulmuş Azərbaycan milli teatrı və bundan 10 il sonra 1883-cü il mayın 11-də



əsası qoyulmuş Naxçıvan teatrı uzun və şərəfli bir yol keçib"-deyən rektor Naxçıvan teatrı üçün ixtisaslı gənc aktyorların yetişdirilməsi məqsədilə görülən işləri diqqətə çatdırıb. Onun sözlərinə görə, muxtar respublikada teatr sahəsində ixtisaslı kadr hazırlığına diqqət göstərilir və universitetdə Aktyorluq sənəti ixtisasının olması bu sahədə görülən işlərin bariz nümunəsidir.

E.İsayev universiteti bu ixtisas üzrə bitirən



tələbələrin muxtar respublikada teatr sahəsinə verdiyi töhfələrdən danışıb və gələcək perspektivləri dəyərləndirib. Həmçinin Aktyorluq ixtisası ilə yanaşı, gələcəkdə rejissorluq fəaliyyəti istiqamətində də peşəkar mütəxəssislərin hazırlanmasının qarşıya tələb kimi qoyulduğunu qeyd edib.

Teatr və mədəniyyətşünaslıq kafedrasının müdiri Gülxarə Əhmədova, həmin kafedranın baş müəllimi, Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidov Naxçıvan Muxtar Respublikasında teatr mühitindən danışıblar.

Milli Teatr Günü ilə bağlı keçirilən tədbirdə Hüseyn Cavidin "Uçurum", Süleyman Sani Axundovun "Şahsənəm və Gülpəri", Valentin Krasnoqorovun "Ağıl və ürək" əsərləri əsasında hazırlanmış tamaşalardan bir parça nümayiş olunub.

## Rektor Elbrus İsayev "Robotex Azərbaycan Avrasiya Çemiponatı"nın qalibləri ilə görüşüb



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev 2-3 mart tarixlərində Naxçıvan Dövlət Universiteti və Robotex Türkiyənin birgə təşkilatçılığı, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, Azercellin və Global Olympiad Center dəstəyi ilə keçirilən "Robotex Azərbaycan Avrasiya Çempionatı"nda yüksək nəticə göstərən universitetin tələbələri ilə görüşüb.

Rektor tələbələri əldə etdikləri uğura görə təbrik edərək onlara təşəkkürnamə, mentor müəllimlərə isə pul mükafatı təqdim edib.

Xatırladaq ki, Dünya Robot festivalının Avrasiya Çempionatının ikinci günündə mükafatlandırılan 163 komandadan 6-sı müxtəlif layihələr üzrə qalib olan Naxçıvan Dövlət Universitetinin komandaları olub.

Məlumat üçün onu da bildirək ki, 18 ölkənin iştirakı ilə Antalyada keçiriləcək yarımfinal mərhələsində dərəcə göstərən komandalar noyabr ayında Estoniyada təşkil ediləcək dünya çempionatında iştirak haqqı qazanacaqlar.

***M.Dünyamalıyev***

## Futzal turnirinin qalibləri ilə görüş keçirilib



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr edilən futzal turnirinin qalib komandası ilə görüşüb. Universitetin futbol komandası ilə keçirilən görüşdə rektor ali təhsil ocağının idman sahəsindəki əhəmiyyətli uğurlarından bəhs edib.

Tələbələri muxtar respublikanın 100 illik yubileyinə verdikləri qalibiyyət töhfəsinə görə təbrik edən Elbrus İsayev belə idman uğurlarının daimi olmasını arzulayıb, məşqçilərə pul mükafatı, komanda üzvlərinə isə təşəkkürnamə təqdim edib.

Qeyd edək ki, Bakı şəhərində keçirilən turnirin məqsədi Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd olunması, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələrinin futzala olan marağının artırılması, onlar arasında futzal idman növünün təbliğ edilməsi, tələbələrdən



ibarət futzal üzrə yığma komandanın formalaşdırılmasından ibarət olub.

# Milyonların sevimlisi – dahi bəstəkar Arif Məlikov

Bir ömrün məktəbini zəngin edən, ona naxış salan sənətə olan ilahi sevgi, əməllər, istedad, bacarıq və zəhmətdir. Bu ömür paylandıqca insanın əfsanəyə çevrilən nurlu əməlləri dünyaya işıq saçır, onu rövnəqləndirir. Bir tarix yazan ömürdə neçə-neçə illərin izləri var. Azərbaycan xalq artisti, professor, Azərbaycan SSR Dövlət mükafatı laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, dünyaşöhrətli bəstəkar Arif Məlikov kimi. Yaşadığı ömür yolunun izləri yaradıcılığına həkk olunub. Hər bəstəsində bir ömür canlanır. Dünyanın istənilən nöqtəsinin zövqlü musiqisevəri Arif Məlikov yaradıcılığına valeh olur. Arif Məlikov elə bir bəstəkardır ki, parlaq istedadı və özünəməxsusluğu ilə sərhəd tanımadan əsərləri dünyanı dolaşır. Bəstəkar əsərlərində milli musiqi ənənələrini yaşadaraq mütərəqqi təfəkkürə malik yaradıcılığını əks etdirmişdir. Klassika ilə yeni düşüncənin vəhdətində möhtəşəm musiqi əsərlərini yaratmağa müvəffəq olmuşdur. Dolğun məzmun, obrazların dərin emosional-psixoloji ifadəsi onun yaradıcılığının səciyyəvi cəhətləridir.

Cismən aramızda olmasa da, ruhən qəlblərdə sənət tariximizdə yaşayan Arif Məlikov 13 sentyabr 1933-cü ildə Bakı şəhərində anadan olub. Musiqi Azərbaycan dili və ədəbiyyat müəlliməsi olan anasının hər zaman çaldığı kamançanın həzin səsiylə, ifa etdiyi muğamlarla onun laylasına çevrilib qanına qarışmışdı. Hər zaman evində tar ifaçıları, müğənnilər görən, onları canlı dinləmək şansı qazanan balaca Arifin həyatındakı dönüş isə 14 yaşında ikən ailə dostlarından birinin ona bağışladığı tarla başlayır. Çox qısa zamanda tar çalmağı öyrənən gəncin məharəti o səviyyəyə çatır ki, 1948-ci ildə onu Asəf Zeynallı adına Musiqi Məktəbinə oxumağa dəvət edirlər. Beləcə, onun musiqi taleyi başlayır. A.Zeynallı adına musiqi məktəbində oxuyanda Arif bir gün küçədə təsadüfən Üzeyir Hacıbəyovu görüb. 15 yaşlı Arif böyük bəstəkarın arxasınca qarabaqara gedərək bir neçə məhəllə keçib. Gözlərini Üzeyir Hacıbəyova dikərək yol getdiyindən kiməsə toxunub. "Korsan" sualını eşidib. Amma o günləri yada salan bəstəkar şərafətlə söyləyib: "Mən kor deyildim, mən görürdüm, mən canlı Hacıbəyovu görürdüm". Üzeyir bəylə bağlı ikinci görüş isə ona dünyanın ən böyük kədər və sarsıntısını bağışlayıb. Arif Məlikov 1948-ci ilin payızında dahi bəstəkarın ölümündən çox təsirlənib. O ağır günlər gənc musiqiçinin qəlbində dərin izlər salıb.

Tar sinifini bitirdikdən sonra, musiqi biliyinin hələ az olduğunu düşünən gənc, Bakı Musiqi Akademiyasına sənəd verməyə tələsmir. Bir il Şuşada müəllim kimi fəaliyyət göstərir. Qısa zaman kəsiyində 10 illik məktəb proqramını bitirib ikinci bir musiqi alətində fortepianoda çalmağa başlayır. Bir il sonra 1953-cü ildə - özünü tam hazır hiss etdikdə Bakı Musiqi Akademiyasına imtahan verərək bəstəkarlıq sinfinə daxil olur. Burada da tale onun üzünə gülür. "Həyatda çox şeyə nail olmağım onunla ünsiyyətimin nəticəsidir" - dediyi dahi bəstəkar Qara Qarayevin sinfində oxuyur. Musiqi sevgisi və müəllimi Qara Qarayevdən aldığı mükəmməl təhsil onun bu sahəyə olan həvəsini daha da artırır və Arif Məlikov hələ tələbəlik illərində bir-birindən uğurlu və zəngin, böyük və çətin əsərlər üzərində işləməyə başlayır. Arif Məlikovun yaradıcılığa başlaması ilə Azərbaycan musiqi mədəniyyətinin yeni səhifələri yazıldı. Onun 1957-ci ildə bəstələdiyi "Nağıl" simfonik poeması böyük rezonans doğurdu. Məhz bu illərin məhsulları-simfonik orkestr üçün "Balet süitası", "Nağıl" faciəsi, fleyta və orkestr üçün "Konsertino" və Birinci Simfoniya görkəmli dirijorların iştirakı ilə nəinki Bakıda, az sonra Moskvada səsləndirildi. Birinci simfoniya Azərbaycan simfonizmində yeni parlaq səhifələr açdı. Elə bu əsərlərlə gənc bəstəkar diqqət çəkməyə başlayırdı. Artıq onun uğurlu gələcəyinə, müəllimi Qara Qarayev başda olmaqla, kimsənin şübhəsi yox idi.

Arif Məlikovun istedadı, sənəti, şöhrətə gedən yolu çoxlarından fərqli olaraq dünyaya bəlli olanda o, çox gənc idi. 1959-cu ildə Q.Qarayevin məsləhətilə Leninqrad Opera və Balet Teatrı A.Məlikova N.Hikmətin "Məhəbbət əfsanəsi" pyesinə balet yazmağı təklif edir. Bəstəkar isə şair N.Hikmət, baletmeyster Qriqoroviç, rəssam Virsaladze və dirijor Niyazidən ibarət yaradıcı heyətlə birgə özünün şah əsərini yaradır. 23 mart 1961-ci ildə azərbaycanlı bəstəkarın Leninqrad Dövlət Opera və Balet Teatrında "Məhəbbət əfsanəsi" baleti tamaşaya



qoyuldu. Böyük türk şairi və dramaturqu Nazim Hikmətlə Arif Məlikovu dərin dostluq münasibətləri bağlayırdı. Doğmaca övladından ayrı düşmüş Nazim Hikmət Arifi oğlu Mehmet qədər sevərmiş. Bakıda böyük şairin çoxlu dostları var idi. Bütün Azərbaycan Nazim Hikməti ürəkdən sevirdi. Bakıya yolu düşəndə hamı onu öz evinə dəvət edirdi. Nazim isə "öncə oğluma dəyməliyəm" deyərmiş. Arif Məlikov da bu məhəbbətə öz oğulluq sevgisini məhz belə əzəmətlə cavablandırdı. O, böyük şövqlə, həvəslə Nazim Hikmətin "Məhəbbət əfsanəsi" pyesi əsasında eyniadlı baletini yazdı. Arif Məlikovun bu baletində ilk dirijor məhz maestro Niyazi oldu. Bəstəkarın bu baleti dünya teatrlarının böyük səhnələrində səslənməkdədir: Rusiya, Özbəkistan, Çexiya, Bolqarıstan, Türkiyə, Polşa, Almaniya, Macarıstan, Finlandiya, Sloveniya, Amerika Birləşmiş Ştatları, Yaponiya, Misir, eləcə də keçmiş sovet respublikalarının əksəriyyəti.

"Məhəbbət əfsanəsi" baletinin ilk tamaşasından dərhal sonra məşhur bəstəkar Dmitri Şostakoviç mülahizələrində əsəri yüksək qiymətləndirmiş və öz hisslərini böyük məhəbbətlə dilə gətirmişdir: "Arif Məlikov istedadlı bəstəkardır. Musiqisi əsl professional musiqidir. Onun əsərində dərin musiqi dramaturgiyası, daxili inkişaf, dəqiqlik, qəhrəmanların xarakterini yüksək səviyyədə ifadə etmək məziyyətləri var. Orkestrin idarə edilməsində Arif Məlikovun nadir istedadı musiqiyə rəngarənglik və tamaşaçılara məftunluq gətirib".

Nazim Hikmət "Məhəbbət əfsanəsi"nə tamaşa edəndən sonra Arif Məlikovla ilk görüşündə onun yazdığı əsər haqqında deyir: "Arif Məlikov mənə deyəndə ki, "Məhəbbət əfsanəsi" baleti yazmaq istəyirəm, həmin gün çox şad oldum. Bu gün gördüklərim təsdiqlədi ki, nahaq yerə sevinməmişəm. Bir daha əmin oldum ki, balet muzey incəsənəti deyil, bu, müasir incəsənətdir. Mən çox həyəcanlanırdım ki, səhnədə Şərq necə görünəcək. Arif Məlikov baletdə Şərq adamına müasir insanın dünyabaxışı ilə baxıb. Buna görə də əsərdə "şirin" Şərqdən, "Əlibaba və qırx quldur" nağılından əsər-əlamət yoxdur. Və bu da yeni baleti teatr tamaşalarından tamam fərqləndirib".

A.Məlikov gənc yaşında yazdığı "Məhəbbət əfsanəsi" ilə milyonların məhəbbətini qazanır. Amma bu uğur heç də onu arxayın salmır. Gecəsini gündüzünə qataraq daha böyük inam və inadla yazıbyaradır. Nə yazırdısa ürəyinin səsi, qəlbinin hökmü ilə yazırdı. Bir an da olsun belə sənətə ötəri həvəs kimi yanaşmırdı. Bəlkə də onu xalqa sevdirən də içindəki düzlük, Üzeyir Hacıbəyli ənənələrinə sadiqlik, Azərbaycana, onun milli-mənəvi, mədəni sərvətlərinə olan sonsuz sevgi idi. O da müəllimi Qara Qarayev kimi yenilik axtarışında, müasirliyə meyilli bir bəstəkar kimi yetişmişdi. 26 yaşlı bir gəncin bu cür böyük uğuru heç də təsadüfi sayıla bilməz. Çünki İlahi tərəfindən verilən bu istedad hələ çox erkən, ta uşaq yaşlarından kəşf olunduğundan onun mükəmməl musiqi təhsili almaq və özünü bu sənətin ən incə qatlarına qədər hər sahəsində inkişaf etdirmək zamanı var idi.

1956-cı ildə Bakıda Azərbaycan bəstəkarlarının I qurultayı keçirilirdi. Həmin tədbirdə ancaq tanınmış incəsənət xadimləri, böyük bəstəkarlar iştirak edirdilər. Qurultayda konservatoriyanın tələbəsi Arif Məlikov skripka və fortepiano üçün bəstələdiyi süitanı ifa edib. Qurultay iştirakçıları gəncin istedadına valeh olublar. XX əsrin böyük bəstəkarı Dmitri Şostakoviç Arif Məlikov haqqında mətbuatda xoş sözlər deyib. Bu, gələcək böyük bəstəkar barəsində ilk xeyir-dua, ilk "resenziya" olub.

1959-cu ildə bəstəkarın ikinci simfonik poeması- "Füzuli" də müəllifə şöhrət gətirdi. Arif Məlikov 26 yaşında Respublika mükafatına layiq görüldü.

A.Məlikov öz simfoniyaları ilə XX əsrin sonu - XXI əsrin əvvəlində milli simfonik musiqimizin əsas inkişaf istiqamətini müəyyən etmiş, bu sahədə aparıcı rol oynamış bəstəkardır. Sənətdə ilk addımlarından o, musiqi aləmində bir ulduz kimi parlayıb, sahibi olduğu fitri istedadını sonrakı illərdə cilalayıb kamilləşdirdiyi peşəkarlığı ilə tamamlayaraq yeni zirvələrə yüksəlib.

Böyük bəstəkar həm də bir vətəndaş kimi Azərbaycanımızın bütün çətin məqamlarında sözünü deməyi, vətəndaşlıq mövqeyini ortaya qoymağı bacarıb. Xalqımızın ağır günündə o, qələmə sarılaraq 20 Yanvar faciəsini əks etdirən "İttiham edirəm" kitabını yazıb. Kitabda bu hadisələrdə günahı olan insanları cəsarətlə ifşa edərək, xalqımızın ağrı-acılarını dünyaya çatdırıb.

Ulu öndər Heydər Əliyev Arif Məlikovun yaradıcılığını çox sevirdi. Moskvada rəhbər vəzifədə çalışdığı illərdə Rusiyada tamaşaya qoyulmuş əsərlərinin tamaşaçıları arasındatanış simanın təbəssümlü baxışlarını görən bəstəkar həmişə Heydər Əliyevin bu diqqətindən ilham aldığını, qürurlandığını söyləyirdi. 1994-cü ildə ümummilli lider Heydər Əliyev Arif Məlikovu özü ilə birlikdə Məkkə ziyarətinə aparmışdı. Arif Məlikov danışırdı: "Mənim üçün təəccüblü və maraqlı fakt budur ki, ziyarət zamanı unudulmaz Heydər Əliyev mənə dedi: ***"Arif, bilirsən səni bura niyə gətirmişəm? İstəyirəm ki, sən buraları da görəsən və bunun təsiri altında bir simfonik əsər yazasan".*** Heydər Əliyevin bu sözləri bəstəkarı heyrətə gətirib. Heydər Əliyevin qüdrətli duyumu, dərin hissiyyatı qarşısında heyrətini gizlədə bilməyən Arif Məlikov deyir: "İnanmıram ki, adi adam Məkkədə simfonik musiqi haqqında fikirləşə bilsin. Simfonik əsər yazan mənəmsə, orada mən belə şeylər fikirləşmirdim. Çünki Məkkə, Mədinə hara, Quran hara, simfonik əsər hara? Bunlar bir-birinə uyuşmayan, üst-üstə düşməyən, tamamilə əks məsələlərdir. Amma böyük şəxsiyyət hiss edirdi ki, məhz orada nəyisə mənimsəyib dəyərli simfonik əsər yazmaq mümkündür".

Dahi Üzeyir Hacıbəyovdan mənəvi, Qara Qarayevdən isə həqiqi dərs alan Arif Məlikovun gələcək bəstəkarların yetişməsində böyük əməyi olub.

Bir faktı da qeyd edək ki, dünyanın bir neçə ölkəsindən Arif Məlikova dəvətlər gəlib. O, isə "Vətən nə seçilər, nə də keçilər. Onun şirini də, qubarı da əzizdir"-deyə cavab verib.

Bəstəkarın 1969-cu ildə Leninqrad Dövlət Opera və Balet Teatrında "İkilikdə" ("Bu torpaqda iki nəfər") adlı baleti tamaşaya qoyuldu. 1981-ci ildə isə "İki ürək" baletini tamamladı. Böyük və möhtəşəm əsərlərlə yanaşı, Arif Məlikov "Torpağın səsi" kantatasını və bir sıra kamera instrumental əsərlərini yazmışdır. Bəstəkar böyüklü-kiçikli vokal janrları da yaradıcılıq diqqətindən kənarda qoymayıb: o, Tofiq Bayramın, Vaqif Səmədoğlunun və başqa şairlərin sözlərinə kantata və vokal-simfonik poemalar bəstələyib. Onun yazdığı "Vətən" vokal simfonik poeması nikbin, romantik əhval-ruhiyyəsi ilə fərqlənir. O, 50-yə yaxın mahnının müəllifidir.

A.Məlikov eləcə də kinofilmlərə və teatr tamaşalarına ən çox musiqi yazan bəstəkar kimi də səciyyələndirilir. "Sehrli xalat", "Ulduzlar sönmür", "Rüstəm və Söhrab", "Axırıncı aşırım", "Qərib cinlər diyarında" kimi filmlərə, "Natəvan", "Atabəylər", "Torpağa sancılan qılınc" tamaşasına, 5 seriyalı "Şahnamə" filminə yazdığı musiqi bu film və tamaşaların müvəffəqiyyət qapısını açan açarlarından biri idi. Bəstəkar ümumilikdə 30-a qədər filmin musiqisinin müəllifidir.

Bəstəkarın simfonik yaradıcılığını təşkil edən möhtəşəm əsərləri - ümummilli lider Heydər Əliyevə ithaf etdiyi "Əbədiyyət" 8-ci simfoniyası, "Nağıl", "Füzulinin xatirəsinə", "Metamorfozlar" simfonik poemaları, süitalar, Nazim Hikmətin sözlərinə 2 vokal silsilə, xalq çalğı alətləri orkestri üçün əsərlər, 7 nömrəli simfoniya, "Azərbaycan" balladası, müxtəlif orkestr pyesləri "Simfonik rəqslər", "12 pyes", müxtəlif dövrlərdə ona təkrar-təkrar dünya şöhrəti qazandıran baletlər - "Məhəbbət əfsanəsi", "İki nəfər", "İki qəlbin dastanı", "Əlibaba və qırx quldur", "Dalğalar" operettası, instrumental musiqi növlərindən fortepiano üçün prelüdiya, solo skripka üçün sonata, skripka və fortepiano üçün süita və skertso kimi janrlara müraciət etmiş, fortepiano üçün miniatürlər, teatr tamaşalarına yazdığı musiqiləri ilə Arif Məlikov çoxdan əbədiyaşarlıq qazanmışdır.

2016-cı ildə bəstəkarın 28 cilddən ibarət "Not əsərlərinin tam külliyyatı" çap olunub.

Arif Məlikov təkcə musiqişünas, bəstəkar kimi deyil, həmçinin bir pedaqoq kimi də xalqına, Azərbaycan musiqi sənətinə xidmət etmişdir. O, Azərbaycan Dövlət Konservatoriyasını bitirən ildən orada dərs deməyə başlamış, ömrünün sonuna kimi bu təhsil ocağında professor və bəstəkarlıq kafedrasının müdiri vəzifəsində çalışmışdır. Professor tələbələrinə yalnız musiqinin sirlərini öyrətməklə qalmırdı, həmçinin yüksək insani keyfiyyətləri, Vətənə, xalqa məhəbbəti, milli-mənəvi dəyərlərə layiqincə sahib çıxmağı da aşılayırdı.

Bəstəkarlıqla rəssamlığın, musiqi ilə rəsmin İlahi bağlılığınınmı, yoxsa yaradıcı insanların sənətin bütün sahələrinə olan marağınınmı nəticəsidir, bilinməz, amma dünya incəsənətinin bir qolu olan Azərbaycan incəsənətində də həm pianonun dillərini, həm də fırçanı eyni ustalıqla dilləndirməyi bacaran sənətkarlar heç də az olmayıb. 7 not - 7 rəng ahəngidir bəlkə də onları özünə cəlb edən. Bəstəkarlar, musiqiçilər təbiətdəki minlərlə, milyonlarla səsi cəmi 7 nota köçürdükləri kimi, rəssamlar da saysız-hesabsız rəng dünyasının təməlini cəmi 7 rəngin üzərində qururlar.

Fövqəladə istedad sahibi, yaradıcı şəxs kimi A.Məlikovun zəngin təxəyyülü onun hər dəfə rənglər dünyasına səyahətinin özünəməxsus dərin fikir və fəlsəfi baxışları ilə süslənmiş əsərlərlə nəticələnməsinə səbəb olub. Bu "səyahətin" ən gözəl nəticələri kimi "Çiçəkli badam ağacı", "Şərq", "Ankarada gecə", "Xəzərin qara qızılı-aylı gecə", "Aya Sofiya", "Təzəpir-gecə", "20 Yanvar", "Əbədiyyət" və s. kimi rəsmlərinin adlarını çəkə bilərik.

Müsahibələrinin birində dahi bəstəkar sənətinə olan sevgisini belə ifadə edir: "Peşmanlıq yaşamamışam. Daha çox xoşbəxt anlarım olub. Hərdən o qədər böyük xoşbəxtlik yaşamışam ki, sözlə deyə bilmirəm. Mən yaşayan bəstəkarlardan heç birinin əsərlərinin 55 il dünya teatrlarında oynanılmasını görməmişəm. Hərdən mənə deyirlər ki, bu sənət sənə nə verdi? Deyirəm ki, "Məhəbbət əfsanəsi"ni. O balet mənə dünyada bütün qapıları açdı".

Arif Məlikov 2019-cu il mayın 9-da 85 yaşında dünyasını dəyişib və I Fəxri xiyabanda dəfn olunub.

***Sevinc Musayeva***
***Musiqi təlimi kafedrasının müdiri***

## Beynəlxalq Məktəbdə Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə bağlı tədbir keçirilib




Tədbirdən əvvəl məktəblilərin muxtar respublikanın 100 illik yubileyinə həsr olunan əl işlərinin sərgisinə baxış olub.

Beynəlxalq Məktəbin direktoru Nazim Rəhimov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü il dekabrın 30-da Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd olunması ilə bağlı Sərəncamını diqqətə çatdırıb.

Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı Prezident cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasının inkişafına hər zaman böyük həssaslıqla yanaşıb, zəngin mədəniyyətə, çoxəsrlik dövlətçilik ənənələrinə malik bu qədim diyarın muxtariyyət tarixinin öyrənilməsinin və təbliğinin zəruriliyini mühüm vəzifə kimi qarşıya qoyub.

Sonra Beynəlxalq Məktəbin şagirdlərinin hazırladığı muxtar respublikanın 100 illik yubileynə həsr



olunan video-çarx nümayiş olunub.

Tədbirin bədii hissəsində məktəbin şagirdlərinin hazırladıqı bir-birindən gözəl ifalar, rəqslər və səhnəciklər iştirakçıların marağına səbəb olub.

***Pərviz Hacılı***

## Ümumdünya piano günü qeyd edilib

Universitetin rektoru Elbrus İsayev Naxçıvanda musiqi təhsilinin formalaşmasında və inkişafında ali təhsil ocağının Konservatoriyasının xüsusi rola



sahib olduğunu qeyd edib. Bildirilib ki, İncəsənət fakültəsində ilk kafedra məhz Fortepiano kafedrası olub.

Vurğulanıb ki, bu kafedranın müəllimlərinin əksəriyyəti Naxçıvan musiqi mədəniyyətinin inkişafında xüsusi xidmətləri olan sənətkarlardır. Elə bu səbəbdəndir ki, muxtar respublikanın musiqi



məktəblərində, Musiqi kollecində və ali təhsil ocaqlarında kafedranın yetirmələri fəaliyyət göstərir.

Rektor nəinki muxtar respublikada, eyni zamanda ölkəmizdə də bu sahəsdə seçilən fortepianoçuları təbrik edib, onlara cansağlığı və yaradıcılıq sevincləri arzulayıb.

Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Nazilə Qardaşbəyova əlamətdar günün tarixindən danışıb. Diqqətə çatdırılıb ki, məşhur alman musiqiçisi, bəstəkarı Nils Frahmın təşəbbüsü ilə ilin 88-ci günündə bütün dünya bu sirli-sehrli, ecazkar çalğı alətinin gününü qeyd edir. 88-ci tarix isə



pianonun həmin sayda dillərinin olması ilə əlaqədardır.

Sonra Fortepiano kafedrasının konsert proqramı nümayiş olunub. Tələbələrin dünya və Azərbaycan klassiklərinin əsərlərindən ifaları alqışlarla qarşılanıb.

Sonda Fortepiano kafedrasının müdiri, professor, Prezident təqaüdçüsü, Naxçıvan Muxtar Respublikasının ilk qadın dirijoru Səidə Məmmədovanın ifası tamaşaçıların zövqünü oxşayıb.

***Səadət Əliyeva***

## Universitet əməkdaşları təlimçi (instructor) sertifikatı əldə ediblər


In recognition of the commitment to achieve professional excellence

Huseyn Asgarli

Has successfully satisfied the requirements for:

Cloud Business Practitioner Certificate: Instructor

Issued on: 07 MAR 2024
Issued by IBM

IBM

NDU-nun əməkdaşları IBM-in "Cloud Business" təlimində iştirak edərək həmin sahə üzrə təlimçi (instructor) sertifikatı əldə ediblər.

IBM-in təlimçiləri tərəfindən keçirilən "Cloud Business" kursunda əməkdaşlarımız - İlham Süleymanov, Hüseyn Əsgərli və Şəhriyar Quliyev iştirak edərək "Cloud Business Practitioner Certificate-Instructor" sertifikatı əldə ediblər.

## Şüalanma və onun fəsadları

*(1 Mart - Ümumdünya Mülki Müdafiə Günüdür)*

Kəskin şüa xəstəliyi-ionlaşdırıcı şüalanmanın insan bədəninin bir çox nahiyəsinə qısa müddətli (bir neçə sutka) təsirindən, orqanizmin bölünən hüceyrələrinin məhv olması nəticəsində yaranır.

Nüvə radiasiyası və ionlaşdırıcı şüalanma, radioaktiv parçalanma nəticəsində, zərrəcik və elektromaqnit kvantları axını yaradır. Bu zərrəciklər və ya kvantlar hər hansı bir maddədən ibarət olduğu atom və molekullardan keçdikcə oyanma yaradılır, həmin maddə sanki şişkinləşir. Bu maddə canlı orqanizmin hansısa vacib birləşməsinin tərkibindədirsə, bu birləşmənin funksiyaları pozulması olur. Nüvə zərrəcikləri bioloji toxumadan keçdikcə ionlaşmış atomların yaranmasına, onlarsa müvafiq olaraq canlı hüceyrələrdə qüsurların yaranmasına gətirib çıxarır.

Ümumən yer kürəsinin əhalisi daimi təbii radiasiya fonunun təsirinə məruz qalır. Bu kosmik radiasiya ətrafda olan təbii radioaktiv maddələrin şüalanması və həmin şüalanmanın radioaktiv maddələrin hava, su, qida vasitəsilə insan orqanizminə düşməsi nəticəsində baş verir. Təbii şualanma nəticəsində yaranan ümumi doza yer kürəsinin ayrı-ayrı bölgələrində müxtəlif olur. Təbii fon ümumi fonun populyasiya dozaları adlanan üçdən birini təşkil edir. Digər hər üç insandan biri o dozanı tibbi diaqnostik prosedurlardan-rentgen çəkilişləri,flüoqrafiya və s. alır. Qalan hissə isə populyasiya dozasını müasir binalarda yaşadıqda qazanır. Eyni zamanda istilik elektrik stansiyaları, daş-kömür mədənlərində iş (daş kömürün tərkibində səpələnmiş şəkildə radio-aktiv elementlər var) radiasiya fonunun yüksəlməsinə səbəb olur. Təyyarədə üçduqda belə, insan az miqdarda ionlaşdırıcı şüalanmaya məruz qalır. Amma bütün bunlar çox az miqdarda olduğu üçün insanın sağlamlığına zərərli təsir etmir. İnsanların radiasıyadan kəskin zədələnmələri radio-kimyəvi zavodlarda, Atom Elektrik stansiyalarında və s. qəza hadisələri baş verdikdə və müalicə məqsədilə 50 raddan yüksək dozada şüalanmadan istifadə etdikdə yaranır. Radioaktiv zədələnmənin ağırlığı əsasən xarici qamma şüalanma ilə müəyyən edilir. Radioaktiv maddələrin düşməsi zamanı xarici qamma şüalanma, dərinin, selikli qişaların çirklənməsi və bəzən radionukleidlərin orqanizminin daxilinə düşməsi ilə birləşir. Radionukleidlər- radioaktivlik parçalanmanın məhsulu olub öz növbəsində ionlaşdırıcı şüalar buraxmaqla parçalana bilər.

Şüa xəstəliyi bu hadisələrin həlqəsində son mərhələ olub, böyük dozada ionlaşdırıcı şüalanmanın toxumalara, hüceyrələrə, orqanizmin maye mühitinə təsiri nəticəsində inkişaf edir. Molekulyar səviyyədə baş verən dəyişiklik, orqanizmin maye mühitində və toxumalarda kimyəvi aktiv birləşmələrin yaranması qanda patoloji mubadilə məhsullarının, toksinlərin meydana gəlməsinə, ən başlıcası isə hüceyrələrin məhvinə səbəb olur. Xəstəliyin əlamətləri və gedişi şüalanmanın dozası və şüalanmadan sonar keçən müddətdən asılı olaraq müxtəlif olur. Şüa xəstəliyi sinir, endokrin sistemi, orqanizmin digər sistemlərinin fəaliyyətindəki nizam pozulur və bütün bunlar birləşmiş hüceyrətoxuma-sinir zədələnməsinin nəticəsidir. İonlaşdırıcı şüalanma xüsusən qanyaratma orqanlarını və bağırsaq toxumalarını zədələyir. İmmunitet aşağı düşür, bu isə infeksion ağırlaşmalara, müxtəlif orqanlarda qansızmalara gətirib çıxarır.

Alınan dozadan asılı olaraq şüa xəstəliyinin 4 dərəcəsi mövcuddur: yüngül (100-200 rad) orta (200-400 rad.) ağır (400-600 rad), çox ağır (600 raddan yuxarı), 100 raddan aşağı dozada şüalanmaya şüa travması deyilir.

Yüngül dərəcəli kəskin şüa xəstəliyi zamanı bəzi xəstələrdə ilkin əlamətlər olur. Lakin bir çox qisimdə bir neçə saat sonra ürək bulanma, qusma qeyd olunur.

Orta dərəcəli kəskin şüa xəstəliyi zamanı qusma şüalanmadan 1-3 saat sonra başlayır, ionlaşdırıcı şüalanmanın təsirindən 5-6 saat sonra dayanır.

Ağır dərəcəli kəskin şüa xəstəliyi zamanı şüadan 30 dəqiqə 1 saat sonra qusma başlayır, 6-12 saatdan sonra dayanır.

Çox ağır dərəcəli kəskin şüa xəstəliyi zamanı isə əlamətlər ionlaşdırıcı şüalanmadan 30 dəqiqə sonra başlayır, tabeolunmaz xarakter daşıyır. Şüalanmadan sonra yoğun bağırsaqların, mədənin, qaraciyərin şüa zədələnməsi inkişaf edir.

Radiyasiyanın təsirindən dəridə yanıqlar yaranır, tüklər tökülür, şüa dermatiti inkişaf edir. Şüalanmadan bir neçə gün sonra sümük iliyi zədələnir. Xəstəlik, şüalanmadan sonra yaranan klinik əlamətlərə əsasən müəyyən edilir. Şüalanma nəticəsində alınan doza dozimetrik məlumatlar əsasında və hüceyrələrin xromosom analizinə əsasən müəyyən edilir. Xəstəliyin müalicəsi şüalanmanın dərəcəsindən asılı olaraq aparılır: yüngül dərəcədə xəstə xüsusi nəzarət altında hospitalizasiya edilir. Orta dərəcədə bütün zərərçəkənlər adi çox profilli stasionlarda müalicəyə cəlb olunur, ağır dərəcədə müalicə xüsusiləşmiş stasionarlarda aparılır, çox ağır dərəcədə isə müasir səviyyədə proqnoz ümidsizdir.

Xroniki şüa xəstəliyi orqanizmin təkrar olaraq kiçik dozalarla şüalanması nəticəsində inkişaf edir, toplam doza 100 raddan ötür. Bu zaman toplam doza ilə yanaşı şüalanmanın insanlara öz əmək qabiliyyətini qoruyub saxlamağa imkan verir.

***Cavanşir Zeynallı***
***Çağırışaqədərki hazırlıq və Mülki Müdafiə kafedrasının baş müəllimi***

## Şəxsiyyətin formalaşmasında elmi dünyagörüşün, əqli və fiziki əməyin rolu

İnsanın təkamül prosesində əqli və fiziki işin təsiri altında formalışır, inkişaf edir, yaşadığı mühitə yaradıcı münasibət bəsləyir, faydalı və səmərəli əməklə məşğul olur, yetkinləşir, qəbul etdiyi qıcıqlara qarşı adekvat cavab reaksiyası verir, məhz bu sadalananlar sayəsində onda elmi dünyagörüşün rüşeyimləri kök salır. Ən əsası isə insan yaxınlarını, doğmalarını və dostlarını sevir, torpağına və vətəninə bağlanır, onlara sadiq qalır, onda sevgi, məhəbbət və nifrət duyğuları yaranır, şəxsiyyətə çevrilir. O bunlara əqli və fiziki əməyin vəhdəti sayəsində nail olur. Beləliklə də böyüyən nəsl dərk olunmuş obyektiv gerçəklik qanunlarından cəmiyyətin və şəxsiyyətin xeyrinə istifadə yollarını, müxtəlif təbiət hadisələrinin mahiyyətini öyrənir, öyrənilmiş biliklərə uyğun olaraq bacarıq və vərdişlərə yiyələnirlər.

Dünyagörüş elmi biliklərlə yanaşı özündə əqidə, baxış və davranışı da birləşdirir. Elmi baxışlar, zəruri əxlaqi hərəkət və davranışlar vəhdət halında dünyagörüşü yaradır. Vahid və hərtərəfli dünyagörüşə malik şəxslər isə bütün hadisələrə, istər təbiət, istərsə də cəmiyyət hadisələrinə eyni obyektiv mövqedən yanaşır.

Dünyagörüşün formalaşdırılması ziddiyyətli prosesdir. Buna görə də insanlarda elmi dünyagörüşün formalaşdırılmasında təhsil və mədəniyyət müəssisələrində aparılan təlim-tərbiyə işləri üzrə tədbirlər əhəmiyyətli rol oynayır.

Fiziki tərbiyə də başqa ictimai hadisələr kimi cəmiyyətin iqtisadi siyasi və mədəni inkişafı ilə əlaqədar olaraq dəyişilir və şəxsiyyətin hərtərəfli inkişafına, onun formalaşmasına xidmət edir.

Müxtəlif müəssisələrin funksiyasından asılı olaraq fiziki tərbiyənin təşkili formaları müxtəlifdir. Sistemli təlim-tərbiyə müəssisələrində fiziki tərbiyə xüsusi dərslərdə aparılır, yeniyetmə və gənclərə həyat üçün zəruri olan idman bacarığı və vərdişləri aşılanır, fiziki inkişaf üçün zəruri biliklər verilir.

Fiziki tərbiyə məşğələləri aşağıdakı tələblərdən ibarətdir:

- bədən tərbiyəsi məşğələləri sağlamlaşdırıcı xarakter daşımalı və gigiyenik tələblərə cavab verməli;
- uşaqların fiziki imkanları, hazırlığı öyrənilməli, fərdi xüsusiyyətlərinə istinad edilməli;
- məşğələlərdə idman hərəkətlərinin formalaşdırılması tərbiyənin digər tərkib hissələri ilə əlaqəli şəkildə aparılmalı;
- gün rejiminin təşkili uşaqların fiziki inkişafı və sağlamlığının təmini istiqamətində planlaşdırılmalı;
- idman və bədən tərbiyəsi məşğələləri, müəyyən idman bacarığı və vərdişlərinin formalaşdırılması ilə nəticələnməli.

Sistemli təlim müəssisələrində idman dərslərində əsası qoyulmuş fiziki tərbiyə işi sinifdən və məktəbdənkanar tərbiyə işlərində də davam etdirilir. Bunlara misal olaraq tədris müəssisələrində məşqlər, böyük tənəffüslərdə təşkil olunan oyunlar, idman əyləncələri və s. göstərmək olar. Sinifdənkənar idman tədbirləri içərisində kütləvi idman yarışları, idman bayramları böyük əhəmiyyət kəsb edir. Bu tədbirlər bacarıq və vərdişlər ilə yanaşı insanların malik olduğu əqli keyfiyyətləri də nümayiş etdirir.

Nəticə olaraq demək olar ki, əqli və fiziki əmək, o cümlədən elmi dünyagörüş şəxsiyyəti formalaşdırır, bunlar isə uşaq və yeniyetmələrin sağlam böyüməsi və gələcəyimizin möhkəm təməllər üzərində qurulmasını təmin edir.

***Abdulla Babayev***
***Ümumi təbabət və kliniki fənnlər kafedrasının baş müəllimi***

# 1918-1920-ci illərdə Naxçıvanda ermənilərin törətmiş olduğu soyqırımlar

1917-ci ildə Rusiyada baş verən Oktyabr çevrilişi ilə əlaqədar olaraq Zaqafqaziyada siyasi hakimiyyət uğrunda mübarizə daha da kəskinləşməyə başladı. Belə bir dövrdə Zaqafqaziya Komissarlığına daxil olan siyasi partiyalar milli müstəqillik planını irəli sürərək hakimiyyət uğrunda mübarizəyə başladılar. Bu partiyalar 1918-ci il fevral ayının 23-də Zaqafqaziya (Cənubi Qafqaz) Seymini yaratdılar. Seymdə üç əsas fraksiya-menşevik, müsavat və daşnak fraksiyaları var idi.

Nəhayət, may ayının sonlarında Zaqafqaziya seymi dağıldı. 1918-ci il mayın 28-də Azərbaycan Dövlət Müstəqilliyini elan etdi. ADR-nın yaranması daşnak bolşevik planlarını alt üst etdi və geriyə atdı. O zaman kı mürəkkəb tarixi-şəraitdə ADR hökuməti tarixi Azərbaycan torpaqlarını lazımınca müdafiə edə bilmirdi. Buna görədə Azərbaycan torpaqlarında erməni terrorçu birləşmələrinin cinayətkar əməlləri 1920-ci ilin ortalarına qədər davam etdirildi.

Belə bir vəziyyətdə Türkiyə Qafqaza ordu yeritməyə çalışırdı. Bunun əsas səbəblərindən biri erməni daşnak quldur dəstələrinin Azərbaycan ərazisində, Azərbaycan əhalisinə qarşı vəhşicəsinə törətdikləri qırğınlar idi.

1918-ci ilin mart ayından başlayaraq erməni daşnakları həm Naxçıvan şəhərində, həm də Naxçıvan qəzasının bir çox kəndlərində müsəlman əhalisinə qarşı silahlı basqınlar etmiş, günahsız insanları qətlə yetirmişdilər. Naxçıvan və Şərur-Dərələyəz qəzalarının əhalisini tamamilə qırılmadan qurtara biləcək yeganə qüvvə, şübhəsiz, türk qoşunları idi. 1918-ci il mayın sonunda Naxçıvan və Şərur-Dərələyəz qəzalarının əhalisi Kərim xan İrəvanlının başçılığı ilə Mehmet Vahib Paşanın yanına xüsusi nümayəndə heyəti göndərərək, Andranikin quldur dəstələrini dağıtmağı və Naxçıvan diyarına qoşun yeritməyi xahiş etdi.

Bu xahişlə əlaqədar Türkiyə hökuməti 1918-ci il iyunun əvvəlində Kazım Qarabəkir Paşanın komandanlığı altındakı 11-ci və Xəlil paşanın başçılığı ilə 9-cu türk diviziyalarını Naxçıvan bölgəsinə göndərdi.

Türk diviziyaları Uluxanlıdan keçərək Naxçıvana hərəkət etdilər. 1918-ci il iyunun 4-də türk qoşunları Naxçıvana daxil oldular. Türkiyənin 11-ci və 9-cu diviziyalarının Naxçıvana gəlişi ilə əlaqədar Andranik öz quldur dəstəsi ilə 5 iyunda Naxçıvana və Şimali İrana gedib ingilis qoşunları ilə birləşib türklərə qarşı vuruşmaq istəyirdi. 8 iyunda Andranik bölgədən keçmək üçün Xəlil bəyə müraciət etdi, lakin Xəlil bəy bu istəyi rədd etdi. 20 iyunda Naxçıvana gələn Andranikin başçılığı altında olan erməni









dəstəsi türk ordusunun dəmiryolu ilə Culfaya gəlməsinə mane olmaq üçün körpüləri dağıtdılar. 21 iyunda Culfaya gələn Andranikin dəstəsi tərəfindən Yaycı kəndi mühasirəyə alındı. 4000 minə yaxın qadın, uşaq və yaşlıya hücum edilərək, çoxunu qətlə yetirdilər.

1918-ci ilin iyul və avqust aylarında Naxçıvan bölgəsinin bir sıra yerlərində Osmanlı qoşunları ilə Andranikin silahlı dəstələri arasında döyüşlər baş verdi. Andranikin dəstələri məğlub olaraq Zəngəzur istiqamətində geriyə çəkilməyə məcbur oldular. Geri çəkilən Andranikin qoşunları Naxçıvanda 15 kəndi viran qoyub, Qahab, Sirab əhalisini qılıncdan keçirdilər. Əbrəqunus, Paradaş, Nəsrəvaz və başqa kəndləri dağıtdılar.

Belə bir vəziyyətdə 1918-ci ilin noyabrında Naxçıvanda Araz-Türk Respublikası öz müstəqilliyini elan etdi. Onun paytaxtı Naxçıvan şəhəri olmaqla Naxçıvan qəzasını, Şərur-Dərələyəz və Ordubad mahallarını, Sərdərabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və başqa bölgələri əhatə edirdi.

1919-cu ilin əvvəllərində erməni polkovniki Doluxanovun başçılıq etdiyi silahlı qüvvələr Sədərəyi keçərək 8 müsəlman kəndini mühasirəyə almış, Dəmirçi kəndini dağıdıb 60 nəfəri həbs edərək İrəvana göndərmiş. 200 nəfərdən artıq adam Arazı keçmək istərkən suda boğulmuşdu.

Naxçıvanda avqust ayında gedən döyüşlər nəticəsində erməni kazarmaları alındı. Daşnakların bütün qoşunu darmadağın edildi. Ermənilər bir neçə min adam, 2 top, 8 puleymot və 1 zirehli qatar itirdilər. 800 erməni əsgəri və 8 zabit əsir alındı.

Müsavat partiyasının informasiya bürosu 1919-cu il avqustun 30-da xəbər verdi ki, Naxçıvan şəhəri erməni işğalçılarından təmizləndi.

Bu dövrdə ən ağır döyüşlər Novruz bayramı ərəfəsində olmuşdu. 1920-ci il martın 21-də Novruz bayramı günü on min nəfərdən çox erməni silahlı qüvvələri qəflətən hücuma keçib Ordubad qəzasının Düylün, Vənənd, Vələver, Xanağa, Beksar, Ağrı, Gənzə, Anabad, Əylis, Kilit, Kotam, Dizə, Unus və s. kəndlərini yandırmış və Ordubad şəhərini mühasirə etmişlər. Lakin ermənilər şəhərə girə bilməmişdilər. Naxçıvan müdafiəçiləri dörd birləşmiş dəstə yaratdılar. Ordubad cəbhəsindəki dəstəyə türk zabiti Zod bəy, Kolabad hissəsində Kalbali xan Naxçıvanski, düşmən qüvvələrinin daha çox toplandığı Şərurda Xəlil bəy, Vedibasarda Nəci bəy və Nuru bəy başçılıq edirdilər.

Arxiv sənədlərindən məlum olur ki, erməni daşnaklarının cinayətləri nəticəsində 1918-1920-ci illərdə Zəngibasarda 48, Vedibasarda 118, Dərələyəzdə 74, Şərurda 76, Əlincəçay və Gilançay boyunca 80-dən artıq kənd dağıdılıb yandırılmış. Bu kəndlərin yarım milyondan çox əhalisi qaçqın düşmüşdü.

Tədqiqat nəticəsində aydın olur ki, 1918-1921-ci illərdə Naxçıvan bölgəsində ermənilər tərəfindən 73 min 727 nəfər azərbaycanlı ən vəhşi üsullarla öldürülmüşdür.

Beləliklə, Daşnakların vəhşilikləri təkcə Naxçıvanda deyil Azərbaycanın digər bölgələrindədə Şamaxıda, Qubada, Göyçayda, Cavadda, Xaçmazda, Ağdaşda Kürdəmirdə, Salyanda, Lənkəranda və digər bölgələrdə davam etdirilmişdi. Dinc əhaliyə amansız divan tutulmuş. Təkcə Bakıda üç gün ərzində 12 mindən artıq azərbaycanlı vəhşicəsinə öldürülmüşdü. Bu hadisələr zamanı Quba qəzasında 122 kənd viran edilmişdi.

Bu dövrdə ən dəhşətli qırğın Şamaxıda olmuşdu qəzasının 58 kəndi dağıdılmış və yandırılmış 7 minə qədər azərbaycanlı qətlə yetirilmişdi, bunun 1653 nəfəri qadın, 965 nəfəri uşaq idi.

Ümumiyyətlə, 1918-1920-ci illərdə Azərbaycanda 250 min, Qərbi Azərbaycanda 132 min azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə qətlə yetrilmişdi. Yalnız Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və qardaş Osmanlı dövlətinin Qafqaz İslam Ordusunun köməyə gəlməsi nəticəsində bu qanlı faciələrə son qoyuldu. AXC hökuməti mart soyqırımı hadisələrini təhqiq etmək üçün Təhqiqat Komissiyası yaratmışdı. Lakin Cümhuriyyətin süqutu bu işi başa çatdırmağa imkan vermədi. Yalnız Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra soyqırımı hadisəsi haqqında real tarixi faktlar ictimaiyyətə açıqlandı. Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin 26 mart 1998-ci il tarixli fərmanı ilə mart soyqırımına ilk dəfə hüquqi-siyasi qiymət verildi, beynəlxalq ictimaiyyətin diqqəti bu antihumanist, ümumbəşəri cinayətə cəlb olundu. Həmin fərmanla 31 mart azərbaycanlıların soyqırımı günü elan olundu.

*Xəzər Hüseynov*
*Azərbaycan tarixi kafedrasının müdiri, Tarix elmləri doktoru*

# Soyumuzun qan yaddaşı

Əsrlər boyu yurdumuzun, soyumuzun başı min cür bəlalar çəkmiş, yadların, yadellilərin təcavüzünə məruz qalmışdır. Son iki yüz il ərzində xalqımızın üzləşdiyi dəhşətlər, məhrumiyyətlər, müharibələr, faciələr daha dəhşətli olmuş, birbaşa soyumuzun məhv edilməsinə yönəldilmişdi. Zamanın gərdişini fürsət bilən qaniçən ermənilər hər addımda xalqımıza qarşı düşmən münasibətini büruzə vermişdir. "Arxalı köpək qurd basar" - deyiblər ulularımız. Özlərinə rus imperiyasını havadar tutaraq imkan düşən kimi xalqımıza qarşı qanlı qırğınlar, terror və soyqırımı törətmişlər.

Hələ XVIII əsrin ilk rübündə I Pyotrun planı Rusiyanın qüdrətini artıracaq isti dənizlərə çıxış idi. Təməli I Pyotr tərəfindən qoyulan bu layihə sonrakı imperatorlar tərəfindən həyata keçirilmişdir. Beləliklə, Osmanlı və İran ərazisindən bu bölgəyə yüz minlərlə erməni köçürüldü. Rusların bu müdaxiləsi ilə ərazidəki etnik tərkib nəzərəçarpacaq şəkildə dəyişdi. Davamlı olaraq aparılan bu siyasətlə bölgədəki erməni nüfuzu 50% artdı. Sonrakı dönəmdə Rusiya erməniləri silahlandırıb müsəlmanlara qarşı etnik təmizləmə siyasəti yürütmüşdür. Nəhayət, erməni Azərbaycan mübarizəsinin əsası beləcə qoyuldu. Yüz ildən artıq bir müddətdir ki, mənfur ermənilərin Azərbaycana qarşı soyqırım, qarət və qətliamlarının ardı-arası kəsilmir. Bunların ən dəhşətlisi və geniş miqyaslısı Mart soyqırımı olmuşdur. 1918-ci il 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhəri və digər bölgələrdə - Quba, Xaçmaz, Şamaxı, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə amansız qırğınlar törədilmiş, qan donduran qanlı cinayətlər baş vermişdir. Rəsmi məlumatlara görə, mart soyqırımı nəticəsinində Bakıda 12 mindən çox azərbaycanlı qətlə yetirilmişdi. Bolşevik daşnak birləşmələri "Kaspi" mətbəəsini, "Açıq söz" qəzetinin redaksiyasını, "İsmailiyyə" (hazırda Milli Elmlər Akademiyası Rəyasət Heyətinin binası) binasını yandırmış, "Təzəpir" məscidinin minarələrini top atəşi ilə zədələmişdilər. Bölgələrdə ermənilərin törətdiyi vəhşiliyin nəticəsində toplu məzarlıqlar aşkarlanmış, soyumuzun qanlı yaddaşının izləri kimi muzeyə çevrilmişdir. Bu hadisə nəticəsində 50 mindən çox müsəlmanın soyqırımına məruz qaldığı göstərilir. Varlığımıza qənim kəsilən qaniçən erməni vəhşiləri zaman-zaman soyqırımları təkrarlamış, öz qanlı məqsədlərini həyata keçirməyə çalışmışlar. 1998-ci il









martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı fərmanla 31mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilmişdir. Azərbaycan Respub-likası Prezidenti İlham Əliyev "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncam imzalamışdır. Bu gün Azərbaycan Cənubi Qafqazın ən güclü ölkəsidir. Azərbaycanın bugünkü mövqeyi ölkəmizi gözügötürməyənlərə, xüsusilə də ermənilərə göz dağı verir. Üç günlük Aprel döyüşləri, 44 günlük Vətən müharibəsi ilə soydaşlarımızın axıdılan günühsuz qanlarının qisası alınmışdır. Ulu öndər Heydər Əliyevin, onun layiqli davamçısı İlham Əliyevin, onun ətrafında dəmir yumruğa dönən bütün Azərbaycanın qüdrəti sayəsində yurdumuza göz dikən yağıların burnu ovulub. Bir zamanlar "yox millətimin xətti bu imzalar içində" - deyə fəryad qoparan ustadların ruhu şaddır. Var millətimin xətti bu imzalar içində! Bu imza pozulmaz, bu dəfə yüksələn bayraq bir daha enməyəcəkdir!

*Nihad Abbasov*
*İqtisadiyyat və idarəetmə fakültəsi Beynəlxalq ticarət və logistika ixtisası üzrə I kurs tələbəsi*

# Naxçıvan Dövlət Universitetində 31 Mart-Azərbaycanlıların Soyqırımı Gününə həsr edilən tədbir keçirilib

Əvvəlcə universitetin İncəsənət fakültəsində 30-a yaxın rəsm əsərinin nümayiş olunduğu sərgiyə baxış olub. Fakültənin "Təsviri incəsənət müəllimliyi" ixtisası üzrə təhsil alan tələbələrinin çəkdikləri rəsmlərdə soyqırım qurbanlarının yaşadığı dəhşətli faciə öz əksini tapıb.



Sonra fakültənin akt zalında davam edən tədbirdə soyqırımı qurbanlarının və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.





Universitetin rektoru Elbrus İsayev qeyd edib ki, 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərman erməni millətçilərinin cinayətkar əməllərinə verilən dolğun və hərtərəfli siyasi qiymət olub. Fərmanda ermənilərin Azərbaycan xalqının başına gətirdiyi müsibət-lər dünyaya bəyan edilərək bu qanlı əməllərə düzgün siyasi qiymət verilib. Vurğulanıb ki, bu tarixi sənəd Azərbaycanın indiki və gələcək nəsillərinin milli yaddaşının qorunması baxımından da fundamental bir proqramdır. Rektor Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti və şanlı ordumuzun rəşadəti ilə 44 günlük Vətən Müharibəsində qazandığımız qələbəni düşmənə verilən layiqli dərs kimi dəyərləndirib.



Elbrus İsayev gənc nəsli soyqırımı qurbanlarının, hər iki Qarabağ müharibəsi şəhidlərinin xatirəsini daim əziz tutmağa və tarix boyu bədnam qonşularımızın başımıza gətirdikləri faciələrdən ibrət almağa çağırıb.

Tədbir Tələbə Teatr Studiyası və "Belkanto" vokal qrupunun birgə hazırladığı bədii kompozisiya ilə davam edib.

# NDU-nun tələbə rəssamlarının soyqırımı qurbanlarının əziz xatirəsinə həsr olunan sərgisi










































Baş Redaktor:
SƏADƏT ƏLİYEVA
seadetaliyeva@ndu.edu.az

Ünvan: AZ 7012,
Naxçıvan şəhəri,
Universitet şəhərciyi
Telefonlar:
544-08-61 (11-50)
yenifikir.ndu@gmail.com

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ NDU

Qeydiyyat № 330
Sifariş № 110
Tiraj 300

Nömrəyə məsul:
PƏRVİZ HACILI
"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.